www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 fevral 2019-cu il Cümə axşamı № 35 (7205) Qiymәti 60 qəpik

**Xəbər**

**Azərbaycandan 5 milyard çıxaran şəxslərin cinayəti - pullar kimindir?**

yazısı səh.14-də

## Gündəm

**Prezident İlham Əliyev Beyləqana səfər etdi**



Dövlət başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun, həmçinin bir sıra obyektlərin açılışını etdi; əhali ilə görüşdü, əsgərlərlə birlikdə nahar etdi

yazısı səh.3-də

**Rəsmi İrəvan danışıqları "ölü nöqtə"yə qaytarmaq istəyir**

yazısı səh.11-də

**Qarabağ Komitəsində istefalar başladı**

yazısı səh.12-də

**Müsavat Partiyasında növbəti saxta vəsiqə qalmaqalı**

yazısı səh.10-da

**Vəzifəsini itirənlər sağlamlıqlarını da itirir - səbəblər**

yazısı səh.12-də

**Söyün Sadıqovun həbsinin gizlinləri - kimin qəzəbinə tuş gəlib?**

yazısı səh.9-da

**ABŞ ordusu İŞİD-in Suriyadakı "son qalasını" mühasirəyə alıb**

yazısı səh.13-də

**"Exchange"lərin açılmasını ləngidən səbəblər**

yazısı səh.12-də

**İmperatorun qadağan etdiyi Sevgililər günü...**

yazısı səh.15-də

**Putinin Yanukoviçə ümidi qalmayıb - ekspert səbəbdən danışdı**

yazısı səh.13-də

**Hava şəraiti qeyri-sabit keçəcək, rayonlarda qar yağacaq**

yazısı səh.2-də

# PAŞİNYANIN "SEHRLİ ÇUBUĞU" - "İQTİSADİ İNQİLAB" NAĞILI RƏSMİLƏŞDİ, SONRA?..

Populist baş nazir xalqını vədlərlə yedizdirməkdə davam edir; sərhədlər açılmayınca iqtisadi sıçrayış mümkün olmayacaq, çünki...; **Sergey Markov**: "Blokada şəraitində Ermənistan iqtisadiyyatını irəli aparacaq qüvvə yoxdur"; **erməni siyasi şərhçi:** "Kosmetik uğurdan artığı mümkün olmayacaq..."




yazısı səh.8-də

# İqtisadiyyatı daha güclü və qüdrətli dövlət qurmaq - prezidentin iqtisadi prioritetləri

**Ekspertlər deyir ki, həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz sosial-iqtisadi cəhətdən çox böyük irəliləyiş əldə edib**

yazısı səh.4-də



*Arzu Nağıyev:*

**"Vətəndaşın rifahı üçün aparılan islahatların davamlı olacağı prezident tərəfindən təsdiqləndi"**

yazısı səh.5-də



*Bəxtiyar Sadıqov:*

**"Kimsə hesab edirsə ki, mitinqlərlə Qarabağ məsələsində nəsə dəyişəcək, yanılır..."**

yazısı səh.7-də



*Deputat Jalə Əliyeva:*

**"16 ildir Prezident hər saat, hər an vətəndaşının yanındadır"**

yazısı səh.6-da

**14 fevral 2019**

# "ASAN Xidmət" adı ilə dələduzluq edən dəstəyə hökm oxundu



## Beyləqana 6 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Beyləqan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Beyləqan şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və abadlıq-quruculuq işlərini davam etdirmək məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Beyləqan Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat, o cümlədən istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 36 mənzilli yaşayış binasının tikintisinə görə 2,0 (iki) milyon manat, abadlıq-quruculuq işlərinin davam etdirilməsinə görə 1,0 (bir) milyon manat ayrılsın.

**Maliyyə Nazirliyinə bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.**

## "Əli Həsənovun səhhəti qaydasındadır"

### Köməkçisi: "Xırda müayinə üçün getmişdi"

**Bir neçə gün öncə baş nazirin müavini Əli Həsənovun səhhətində problem yarandığına dair mətbuatda məlumat yayılmışdı. Məlumatda bildirilirdi ki, Ə.Həsənov müayinə olunmaq üçün Respublika Müalicəvi Diaqnostika Mərkəzinə gedib.**

Diaqnostik və invaziv radioloq və endovaskulyar cərrahı, şöbə müdiri Əhməd Memiş Ə.Həsənovu müayinə edib. Müayinədən sonra nazir müavininin böyrəklərində, ödündə və digər orqanlarında problemlərin olduğu aşkarlanıb. Həmçinin qeyd olunurdu ki, Ə.Həsənov səhhətində yaranan narahatlığa görə bir müddət müalicə alacaq.

Hazırda Ə.Həsənovun vəziyyəti necədir? Baş nazir müavini müalicə alırmı? Bununla bağlı "Yeni Müsavat"ın suallarını cavablandıran **Ə.Həsənovun köməkçisi Ramin Talıblı** bildirdi ki, baş nazir müavininin səhhəti qaydasındadır: "Xırda bir müayinə üçün getmişdi ora. Heç bir narahatlığı yoxdur hazırda. İşinin başındadır".

**❑ DÜNYA, "Yeni Müsavat"**

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

**Bakı Ağır Cinayətlər Məhkəməsində vətəndaşları "ASAN xidmət"də işə düzəltmək adı ilə dələduzluq etməkdə və rüşvət verməyə təhrik etməkdə təqsirləndirilən Nurəddin Quliyev, Zakir Məmmədov, Yasin Məmmədov və Ədalət Zaidovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb.**

Trend-in məlumatına görə, hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub.

Məhkəmənin hökmü ilə, N.Quliyev 5 il, Z.Məmmədov 4 il 6 ay, Y.Məmmədov 6 il azadlıqdan məhrum edilib. Ə.Zaidova isə 1 il müddətinə sınaq müddəti təyin edilməklə şərti cəza verilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə yaydığı məlumata əsasən, həmin şəxslər ötən il həbs edilib. Məlum olub ki, N.Quliyev "ASAN xidmət"in Sumqayıt filialında ştatdankənar mütəxəssis işləyib.





## Şamaxıda vulkandan sonra iki yaşayış evində çatlar əmələ gəlib

**Şamaxı rayonunun Quşçu kəndində baş verən vulkan püskürməsi nəticəsində iki yaşayış evində çatlar əmələ gəlib.**

Bu barədə "Report"a açıqlamasında AMEA-nın Geologiya və Geofizika İnstitutunun Palçıq vulkanizmi şöbəsinin rəhbəri, geologiya-mineralogiya elmləri doktoru, professor Adil Əliyev məlumat verib.

**O bildirib ki, vulkan püskürən zaman alov qeydə alınmayıb:** "Elə də güclü püskürmə olmayıb. Vulkan nəticəsində yer qatından çıxarılan palçıq və süxurlar 2 hektar sahəyə qədər yayılıb. Vulkanın baş verdiyi ərazinin 40-50 metr yaxınlığında yerləşən iki yaşayış evinin divarlarında çatlar əmələ gəlib. Yer səthində isə heç bir çat qeydə alınmayıb. Heç bir xəsarət alan olmayıb".

**A.Əliyev qeyd edib ki, "Quşçu" vulkanı sonuncu dəfə 2018-ci ilin yanvar ayında püskürüb:** "Son 200 il ərzində "Quşçu" vulkanı 15 dəfə püskürüb".

Qeyd edək ki, Şamaxı rayonunun Quşçu kəndində vulkan püskürməsi fevralın 13-də saat 06:25-də qeydə alınıb. Püskürmə 1 dəqiqə 30 saniyə davam edib. Hadisədən sonra AMEA-nın Geologiya və Geofizika İnstitutunun Palçıq vulkanizmi şöbəsinin əməkdaşları Şamaxı rayonunda vulkan püskürən əraziyə yollanıb.

## Ötən il "Şahdəniz"dən 11,5 milyard kubmetr qaz hasil edilib

**2018-ci ildə "Şahdəniz" yatağından 11,5 milyard standart kubmetr qaz və 2,5 milyon ton (təqribən 20,5 milyon barel) kondensat hasil edilib.**



Bu barədə Musavat.com-a layihənin operatoru olan BP şirkətinin İctimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, ötən il yataq üzrə fəaliyyətlərə 578 milyon dollardan çox əməliyyat və təqribən 1,44 milyard dollar əsaslı xərclər çəkilib. Əsaslı xərclərin böyük əksəriyyəti "Şahdəniz 2" layihəsinə aiddir.

Mövcud Şahdəniz qurğularının hasilat gücü hazırda gündə 48 milyon (ildə təqribən 16 milyard) standart kubmetrdir.

Ötən ilin iyunundan "Şahdəniz 2" layihəsi çərçivəsində Türkiyəyə ilk kommersiya məqsədli daşımalar başlayıb.

2018-ci il ərzində "Şahdəniz" qasını daşıyan Cənubi Qafqaz Boru Kəməri(CQBK) ilə bağlı fəaliyyətlərə təqribən 39 milyon dollar əməliyyat xərcləri və 352 milyon dollar əsaslı xərclər sərf edilib.

**İl ərzində CQBK-nin gündəlik orta ötürücülük gücü 23 milyon kubmetrdən çox olub.**

**❑ DÜNYA, Musavat.com**

## Hava şəraiti qeyri-sabit keçəcək, rayonlarda qar yağacaq

**Fevralın 14-nə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən-buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında çiskinli olacağı ehtimalı var. Səhər saatlarında zəif duman olacaq. Cənub küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 3-5, gündüz 7-10, Bakıda gecə 3-5, gündüz 8-10 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1-6, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-6 dərəcə isti təşkil edəcək.

Nazirlik xəbərdarlıq edir ki, fevralın 14-ü axşamdan 16-sı gündüzədək Azərbaycanın rayonlarında havanın qeyri-sabit keçəcəyi, arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir 18-23 m/s-dək güclənəcək.

## Zakir Qaralov Salyanda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov cari il fevralın 22-də saat 10:00-da Salyan Rayon Prokurorluğunun inzibati binasında Şirvan şəhər, Hacıqabul, Sabirabad, Salyan və Saatlı rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluqdan Trend-ə verilən məlumata görə, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaqdır.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Salyan rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcəkdir.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

## "Facebook" və "YouTube" bazaları Azərbaycana gətirilsin - Ekspertdən təklif

**Bu gün sosial şəbəkələrdə təhqirlərin, xoşagəlməz halların qarşısını almaq üçün "Facebook", "YouTube" və digər beynəlxalq sosial şəbəkələrin bazalarının Azərbaycana gətirilməsi zəruridir.**

Trend-in məlumatına görə, bunu Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz Yeni Azərbaycan Partiyasının qərargahında qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələri ilə görüşdə deyib.

**O qeyd edib ki, sosial şəbəkələrdə söyüş yazanlar fikirləşirlər ki, onların hesabları xaricdədir və istədiklərini yaza, qanunazidd hərəkətlər edə bilərlər:**

"Ancaq sosial şəbəkələrin bazaları Azərbaycanda olsa, biz onlarla daha yaxından əməkdaşlıq edə bilərik, sosial şəbəkələrdə söyüş söyənlərə, başqalarını təhqir edənlərə qarşı daha asan mübarizə apara bilərik. Türkiyə də bu metoddan istifadə etdi və bu gün orada bu problem xeyli azalıb".

**O.Gündüz bildirib ki, sosial şəbəkələrin bazalarının Azərbaycana gətirilməsi kommersiya baxımından da ölkəmiz üçün faydalı ola bilər.**





# Prezident İlham Əliyev Beyləqana səfər etdi

**Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfər edib.**

## Dövlət başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun, həmçinin bir sıra obyektlərin açılışını etdi; əhali ilə görüşdü, əsgərlərlə birlikdə nahar etdi

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev rayonda görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

Prezident İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun göstəriciləri barədə məlumat verib.

Prezident İlham Əliyevə Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun yenidən qurulması layihəsi barədə də məlumat verilib.

Dövlət başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər, eyni zamanda, davamlı tərəqqinin əsas amillərindəndir. Son illər Prezident İlham Əliyevin birbaşa tapşırıq və sərəncamlarına əsasən yolların müasir səviyyədə yenilənməsi işinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətdə və yüksək keyfiyyətlə icra olunur.

Həmçinin, fevralın 13-də Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsib.

Yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına mədəniyyət ocağı barədə məlumat verilib.

Sonra Prezident İlham Əliyev muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşüb, onlarla söhbət edib. Rayon sakinləri dövlətimizin başçısını hərarətlə qarşılayıblar.

İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin açılışında da iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

**Gənclər və idman naziri Azad Rəhimov Beyləqan Olimpiya İdman Kompleksində yaradılan şərait barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verib.**

Bildirilib ki, kompleksin tikintisinə 2018-ci ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 17,5 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə istifadəyə verilən sayca 45-ci Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi 2,6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Qırx yerlik mehmanxanada idmançıların qalması və istirahəti üçün hər cür imkan var.

Beyləqan Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Karate üzrə dünya çempionu Sahib Nəsibov və yunan-Roma güləşi üzrə Əməkdar məşqçi Kamil Fərzəliyev göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, kompleksin müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1900-ə qədər tamaşaçı izləyə biləcək. Burada mini futbol meydançaları da idmançıların ixtiyarına verilib. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıb.

Prezident İlham Əliyev fevralın 13-də Beyləqan rayonunda yenidən qurulan 110/35/10 kV-luq "Beyləqan-1" yarımstansiyasının açılışında da iştirak edib.

Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

**"Azərişıq" ASC-nin sədri səlahiyyətlərini icra edən Vüqar Əhmədov stansiya barədə dövlətimizin başçısına məlumat verib.**

Yenidən qurulmuş yarımstansiya vasitəsilə Beyləqan şəhərində, Mayak və Yuxarı Aran qəsəbələrində yaşayan 28 min nəfər əhalinin, eyni zamanda, şəhərdəki ictimai, sosial-mədəni, idman, müalicə obyektlərinin elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Həmçinin rayon ərazisində olan əkinçilik, pambıqçılıq və digər təsərrüfatların enerji təminatı tam ödəniləcək.

Bildirilib ki, "Beyləqan-1" yarımstansiyasında müasir tipli idarəetmə mərkəzi, 35-10 kv-luq qapalı paylayıcı qurğular məsafədən dispetçer idarəetmə sisteminə (SCADA) qoşulub.

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə də tanış olub.**

Prezidentin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport veriblər.

Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC-nin yaradılması ilə bağlı imzaladığı Fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış evləri tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.

Dövlətimizin başçısına məlumat verilib ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla 48 mənzilin tikintisi davam etdirilir.

Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıb. Şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlarından ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıb.

**Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlanıb, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar edib.**





# İqtisadiyyatı daha güclü və qüdrətli dövlət qurmaq-prezidentin iqtisadi prioritetləri

## Ekspert: "Həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz sosial-iqtisadi cəhətdən çox böyük irəliləyiş əldə edib"

**Prezident İlham Əliyev Real TV-yə verdiyi müsahibədə bir sıra maraqlı məqamlara toxunub. Bu ilin əvvəlindən başlanan islahatları dəyərləndirən ölkə rəhbəri bildirib ki, onların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir: "Ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik".**



**İ.Əliyev bildirib ki, şəffaflıq əsas prinsip olmalıdır:** "Deyə bilərəm ki, keçən il hazırlanan və bu il başlanan, xüsusilə iqtisadi, sosial və kənd təsərrüfatı sahələrində aparılan islahatlar imkan verir ki, biz əlavə maliyyə resursları əldə edək. Siz bilirsiniz ki, bu yaxınlarda minimum əməkhaqqının qaldırılması ilə bağlı çox ciddi addım atılmışdır, digər sosialyönümlü addımlar atılmışdır. Biz nəyin hesabına buna nail ola bilmişik? Ona görə ki, bu ilin birinci ayında biz əlavə gəlirlər əldə etdik. Gəlirlər məhz şəffaflıq, düzgün yanaşma hesabına əldə olundu. Bu gəlirlər bizə əlavə maliyyə resurslarının yaranmasına imkan verdi. Biz bu maliyyə resursunu müxtəlif istiqamətlərə - ehtiyatların artırılmasına, infrastruktur layihələrinin icrasına yönəldə bilərdik. Amma mən qərar verdim ki, əldə edilmiş bu əlavə maliyyə resursları, ilk növbədə, vətəndaşların rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu da etdik. Güclü sosial siyasət bizim gündəliyimizdə bundan sonra da ən vacib, ən ümdə məsələlərdən biri olaraq qalacaqdır".

**Prezident şəffaflığın ən bariz nümunəsi kimi "ASAN xidmət"dən bəhs edib**: "ASAN xidmət"də korrupsiya, rüşvətxorluq, kobudluq, bürokratiya sıfırdır. Yəni mənfi halların qarşısını almaq mümkündür. Bunu biz özümüz etmişik. Hansısa heç bir xarici təşkilat bunu bizə tövsiyə etməmişdir. Qərar da bizimdir, icraçılar da Azərbaycan vətəndaşlarıdır, gənclərdir və nəticəni də Azərbaycan vətəndaşları görürlər. Ona görə bu, ictimai davranış sahəsində, ictimai xidmətlər sahəsində, məmur-vətəndaş münasibətlərində inqilabdır. Sirr deyildir ki, "ASAN xidmət"ə qədər bizim vətəndaşlar hər hansı bir arayışı almaq üçün nə qədər böyük əziyyət çəkirdilər. Günlərlə, bəlkə həftələrlə vaxt itirirdilər, digər xoşagəlməz hallarla üzləşirdilər. İndi biz bunu bacardıq, bu, artıq keçmişdə qaldı".

**Ölkə iqtisadiyyatında baş verən proseslərdən danışan prezident qeyd edib ki, Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilib:** "Yəni nəqliyyat mərkəzlərindən birinə yox, məhz nəqliyyat mərkəzinə çevrilib. Çünki Şimal-Cənub və Şərq-Qərb dəhlizləri ölkəmizin ərazisindən keçir. Biz bu coğrafi vəziyyətdən çox səmərəli istifadə etdik, güclü infrastruktur yaratdıq. Bu gün Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində 10-dan çox ölkə əməkdaşlıq edir. Yalnız bir ölkə hər iki layihədə iştirak edir ki, o da Azərbaycandır".

**Prezidentin diqqət yetirdiyi daha bir məsələ ölkədə keçirilən müxtəlif idman yarışlarının turizmin inkişafına təsiri olub**: "Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. Xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, gözəl şərait. Bütün bunlar turizmin inkişafı üçün əsas şərtlər idi ki, biz bunları yaratdıq. İkinci məsələ ondan ibarət idi ki, biz turistləri necə cəlb edək, Azərbaycanı dünyaya necə təqdim edək. Burada xüsusi rol oynayan Azərbaycanda keçirilmiş beynəlxalq tədbirlər idi. Avropa Oyunları. 2015-ci ildə keçirilmiş Avropa Oyunlarından sonra və 2016-cı ildə keçirilmiş birinci Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. Yaxşı, nəyə görə bu vaxta qədər artmırdı. Bu vaxta qədər də biz turistləri cəlb etmək üçün səylər göstərirdik. Məhz Avropa Oyunları, Formula 1 yarışları turistlərin sayını 22 faiz qaldırdı. Ondan sonra - 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Biz gördük ki, müsəlman ölkələrindən gələn turistlərin sayı kəskin artdı. Bəzi ölkələrdən 3-4 dəfə. Yəni bu Oyunların da çox böyük təsiri oldu. Təkcə Formula 1 yarışı birbaşa ölkəmizə, ölkəmizin xidmət sektoruna təxminən 300 milyon dollara yaxın vəsaitin daxil olmasına şərait yaratdı. Yarım milyard auditoriyası olan bu yarış, əlbəttə ki, Azərbaycan üçün çox böyük fayda gətirir. Bu yarışlar 21 şəhərdə keçirilir. Əgər bu yarışlar səmərəsizdirsə, əgər bu yarışlar iqtisadi itkilərə gətirirsə, inkişaf etmiş şəhərlərdə bu yarışlar keçirilərdimi? Əlbəttə ki, yox".

**Prezidentin sözlərinə görə, ölkə xidmət sektorunda bundan çox böyük xeyir götürür:** "Azərbaycanı dünyada tanıtmaq üçün bunun çox böyük əhəmiyyəti var. Turizm ixracın bir növüdür. Mən bir müqayisə gətirim sizin üçün. Keçən il kənd təsərrüfatı məhsullarının ixracından Azərbaycan turizmdən gələn vəsaitdən daha az vəsait əldə etdi. Yəni, turizm ixrac növüdür. Keçən il Azərbaycana turizmdən iki milyard dollar vəsait daxil oldu. Bu vəsait vətəndaşlara, xidmət sektoruna, vergilərə və ümumi inkişafa xidmət göstərir. Ona görə biz qabaqcıl ölkələrin təcrübəsini öyrənirik və çalışırıq ki, Azərbaycanda turizm sənayesi daha da sürətlə inkişaf etsin. Keçən il ölkəmizə 2 milyon 800 min xarici qonaq gəlmişdi. Bu il daha çox gələcək. Bu, bizim iqtisadi inkişafımızın çox önəmli istiqamətidir".

Prezident İ.Əliyevin müsahibədə səsləndirdiyi fikirləri "Yeni Müsavat"a şərh edən **iqtisadçı-ekspert Pərviz Heydərov**un sözlərinə görə, onlar real vəziyyəti əks etdirir: "Dövlət başçısı müsahibəsində bir daha 2019-cu ildən islahatların yeni mərhələsinin başlanması, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurlu icrası, "ASAN xidmət"in idarəetmədə rolu və əhəmiyyəti, ölkəmizin Avrasiyanın nəqliyyat mərkəzinə çevrilməsi, iqtisadiyyatın qeyri-neft sektoru və onun ən mühüm qollarından



Pərviz Heydərov

olan turizmin inkişafıyla bağlı məsələlərə toxundu. Məlumdur ki, bu ildən iqtisadi sahədə çoxlu sayda yeniliklər tətbiq olunub. Vergi mexanizmi dəyişib. Gələn aydan minimum əməkhaqqı yaşayış minimumuna bərabər olacaq. Struktur islahatlarına başlanıb və sair. Bunların hər biri ayrı-ayrılıqda məsuliyyətli və ağır işlərdir".

**P.Heydərov deyir ki, ölkənin ümumi iqtisadi inkişafında son 15 il ərzində regionların sosial-iqtisadi həyatında görülən işlər böyük rol oynayır**: "Belə ki, bilavasitə dövlətin və hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində ölkəmizin bölgələri sosial-iqtisadi cəhətdən çox böyük irəliləyiş əldə edib. Bu, regionların sosial-iqtisadi inkişafına dair ardıcıl olaraq 3 Dövlət Proqramının icrası nəticəsində əldə olunub. Onlardan sonuncusunun icrasına ötən il yekun vuruldu. İndiyədək həyata keçirilən üç Dövlət Proqramı nəticəsində bölgələrdə böyük və müasir infrastruktur yaranıb. Bu, olduqca vacib idi. İqtisadiyyatın istənilən sahəsində inkişafa nail olunması, emal və istehsal müəssisələrinin yaradılması üçün müvafiq kanlarına, müvafiq dəhliz rolunu yerinə yetirmək şanslarımız vardır. Bundan istifadə edə bilək, yararlanaq. Odur ki, avtomobil yollarıyla yanaşı, dəmir yolu xətlərinin də şəbəkəsi genişləndirilməkdədir. Həm daxili, həm də ölkəmiz üzərindən keçən və yaxud kənar ölkələrlə bizi birləşdirən. Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri artıq, fəaliyyətdədir. Ölkə daxilində bir neçə dəmir yolu tikilməsi gündəlikdədir. Şəhərlərarası dəmir yollarının tikintisi də aparılır. İndi Ləki-Qəbələ dəmir yolu tikilir. Sözün qısası, ölkədə yol infrastrukturunun inkişafı yaxın perespektivdə müvafiq gəlir gətirmək üçün həyata keçirilməkdədir. Və qeyd etmək istərdim ki, postneft dövrü üçün bu, qabaqcadan görülən ən zəruri və ağıllı ehtiyat tədbiridir, siyasətdir. Sabah bu yollar hamısı ölkəyə və dövlətə gəlir gətirəcəkdir".

**Bundan əlavə, indiyədək regionların qaz, elektrik enerjisi, avtomobil yolları və s. təminatı sahəsində də böyük işlər görülüb, turizmin inkişafı üçün hər cür şərait yaradılıb:** "Yeri gəlmişkən, bəzi dairələr qeyd edirlər ki, son 15 il ərzində regionlara infrastrukturun olması ən vacib şərtlərdən biridir. Avtomobil və eyni zamanda dəmir yolları bunun mühüm tərkib hissəsidir. 15 ildə 15 min kilometr avtomobil yolu çəkilib. Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. MDB-də 1-ci yerə sahibik. Bunlar hamısı ona görə təmin edilib ki, Azərbaycan çox strateji bir bölgədə - coğrafiyada yerləşir - mühüm, alternativsiz tranzit imxərclənilən vəsaitlərin müqabilində heç də kifayət səviyyədə gəlirlilik əldə edilməyib, bölgələrin ümumi gəlirdə payı yenə az təşkil edir. Unudurlar ki, infrastruktur çox pul aparan və iqtisadiyyatın real sektoru kimi gəlir gətirən sahə deyil. Ona görə də indi isə əsas diqqət regionlarda emal və istehsal sahələrinin inkişaf etdirilməsinə yönəlməlidir və yönəldiləcək də... Burada bir məqama da toxunum: bir çoxları ölkədə müxtəlif beynəlxalq yarışların keçirilməsinə də isteh-za ilə yanaşırdılar. Lakin müvafiq infrastrukturun yaradılması məsələnin birinci tərəfi idi. İkinci məsələ ondan ibarət idi ki, turistlər cəlb olunsun, Azərbaycan dünyaya təqdim olunsun. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bunun üçün xüsusi rol oynadı. Dövlət başçısı qeyd etdiyi kimi, 2015-ci ildə keçirilmiş Avropa Oyunlarından sonra və 2016-cı ildə keçirilmiş birinci Formula 1 yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Müsəlman ölkələrindən gələn turistlərin sayı artdı. Turizm hazırda kənd təsərrüfatı məhsullarının ixracından ölkəyə daha çox vəsait gətirir. Keçən il Azərbaycana turizmdən iki milyard dollar vəsait daxil oldu. Bu, iqtisadi inkişafın önəmli istiqamətidir".

**Ekspertin fikrincə, "ASAN xidmət"in idarəetmədə rolu və əhəmiyyəti böyükdür:** "Burada korrupsiya, rüşvətxorluq, kobudluq, bürokratiya sıfırdır. Prezident də qeyd etdiyi kimi, ictimai davranış sahəsində, ictimai xidmətlər sahəsində, məmur-vətəndaş münasibətlərində inqilabdır. 5 yeni "ASAN xidmət" mərkəzi də açılacaq. Burada 200-dən çox xidmət göstərilir və bunların sayı gündən-günə artır. Yəni bu, korrupsiya, rüşvətxorluq ilə mübarizədə mühüm bir vasitədir. Paralel olaraq, idarəetmədə struktur islahatları da məqsədə çatmağa tam imkan verəcək. Məqsəd isə prezidentin qeyd etdiyi kimi, Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır".

❑ **DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019

**Prezident İlham Əliyevin 12 fevralda Real.TV-yə müsahibəsində Azərbaycanda aparılan islahatların əhatə dairəsi, əsas hədəfi, növbəti addımları barədə suallara cavabları, Dağlıq Qarabağ problemi ətrafında gedən danışıqlar, Azərbaycan Ordusunun gücü mövzusunda fikirləri maraq doğurub.**



# Prezidentin geniş rezonans doğuran müsahibəsinə reaksiyalar







**Fəzail Ağamalı:** "Prezident fikir və arqumentlərində kifayət qədər iradəli, cəsarətli və qətiyyətli görünürdü
**Arzu Nağıyev:** "Vətəndaşın rifahı üçün aparılan islahatların davamlı olacağı prezident tərəfindən təsdiqləndi"
**Elxan Şahinoğlu:** "Prezident 2019-cu ildə islahatlara spontan başlamadığına və düyməyə basmaq üçün hərtərəfli təhlillər aparıldığına işarə vurdu"

**AVP sədri, deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a açıqlamasında dedi ki, prezidentin müsahibəsini iki dəfə diqqətlə dinləyib: "Kifayət qədər geniş xarakter daşıyan, dövlətimizin dünəninin çox lakonik şəkildə şərhindən və keçdiyimiz yola verilmiş lakonik qiymətdən başlamış, ta ki, dövlətimizin bugünkü hədəfləri, ölkənin xarici və daxili siyasəti, ictimai münasibətlər, məmur-vətəndaş münasibətləri, işğal olunmuş torpaqların azad edilməsi ilə bağlı prinsipial mövqe, dövlətin xətti və gələcək inkişafımıza istiqamətlənən və prinsipial xarakter daşıyan istəklər müsahibədə kifayət qədər inamlı, arqumentli şəkildə ifadə olundu. Doğrusu, bir vətəndaş olaraq prezidentimizin bu çıxışından sonra rahat duyğular keçirtdim. Üstəlik, nəinki özümüz, indiki durumla bağlı, eyni zamanda, açıq etiraf edim ki, övladlarımızın taleyi ilə bağlı da məndə bir daha tam mənada arxayınçılıq və əminlik yarandı. Prezident söyləmiş olduğu fikir və arqumentlərdə kifayət qədər inamlı, iradəli, cəsarətli və qətiyyətli görünürdü. Bu, əsl liderə xas olan keyfiyyətlərdir". **F.Ağamalı qeyd etdi ki, xüsusilə də prezidentin Şamaxıya, zəlzələ bölgəsinə getməsi və orada təsadüfən ağbirçək nənə ilə görüşü ilə bağlı təəssüratlarını bölüşməsi, yaşlı nənənin timsalında xalqımıza verdiyi qiymət onu xeyli duyğulandırıb:** "Prezidentin yaşlı nənənin üzündən və əlindən öpməsi səhnəsini mən də görmüşdüm. Bu, tək-tək liderin özündə daşıya biləcəyi səmimiyyətdən doğan bir keyfiyyətidir. Məncə, nənə ilə görüş ölkə prezidentinə bir daha böyük inam aşıladı ki, Azərbaycan xalqı ilə onun lideri çox uzun hədəflərə gedə bilər, ən ciddi baryerləri aşa bilər. Nənə ilə prezidentin görüşü həm də xalqımızın prezidentlə, dövlətimizlə birliyinin təcəssümünə, simvoluna çevrildi. Baxın, bu görüş hətta prezidentimizi də duyğulandırdı, dedi ki, mən bir daha nənə ilə görüşə gedəcəyəm, onun evinin açılışında iştirak edəcəyəm. Bu, vətəndaş-prezident münasibətlərinin unikal bir ifadəsidir". **Deputat bildirdi ki, bütün bunlara görə, o, prezidentlə sözün həqiqi mənasında fəxr edir:** "Fəxr edirəm ki, prezidentimizin rəhbərliyi altında bu ölkədə gedən proseslərdə iştirak edirəm, imkanlarım daxilində dövlətimizə, xalqımıza xidmət etməyə çalışıram. Çalışıram ki, prezidentimizin atdığı addımların möhkəmlənməsi üçün bir vətəndaş mövqeyimi ortalığa qoyum, onunla bərabər olum. Cənab prezident də əmin olmalıdır ki, Azərbaycan xalqının mütləq əksəriyyəti onunla birdir. Bu gün Azərbaycanı sevən, ona bütün varlığı ilə bağlı olan bütün peşə adamları, içi mən qarışıq siyasətçilər daxil olmaqla vətəndaşlarımızın mütləq əksəriyyəti cənab prezidentlə bərabərdir. Allah onu qorusun! Allah prezidentimizə cansağlığı, uzun ömür qismət eləsin ki, o hədəflərə biz bərabər çataq və Azərbaycan dövləti daha yüksək zirvələrdə söz sahibi olsun!"

"Azərbaycan prezidenti cənab İlham Əliyevin müsahibəsində daxili və xarici siyasətdə prioritet istiqamətlərin nədən ibarət olduğu bir daha vurğulandı. Daxili siyasətdə Azərbaycan vətəndaşının rifahı üçün aparılan islahatlar və onların davamlı olacağı prezident tərəfindən təsdiqləndi. Məhz buna görə sosial inkişafın vacibliyi əsas meyar kimi götürülür. Eyni zamanda prezident hər bir vətəndaşın keçirilən islahatlardan tam şəkildə faydalanmalı olduğunu ön plana çəkdi, bu həmişə olmalıdır, istər təbii fəlakət, istərsə də digər təhlükələrə təhdidin qarşısının alınmasında".

Bu fikirləri **politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert digər məsələlərə də diqqət çəkdi: "Bundan başqa, prezident korrupsiya, rüşvətxorluq və bu kimi faktların qarşısının alınmasında yeni metodların tətbiqi, məmur-vətəndaş təmasının normal və sivil qaydada aparılmasının vacibliyini, gənc kadr potensialından istifadə edilməsini, yeni innovativ metodların tətbiqinin vacibliyini məxsusi vurğuladı. Azərbaycanın kadr potensialını artırmaq üçün gənclərə olan inam çox mühüm məsələdir, savad, bilik, milli hisslərə hörmət vacib məsələdir və müsahibədə bu da öz yerini tapdı. Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycanın daxili və xarici siyasətində prioritet istiqamətdir və cənab İlham Əliyev bunu həmişə olduğu kimi, bu dəfə də xüsusi qeyd etdi. Bu istiqamətdə diplomatik addımlar mühüm məsələ olduğu kimi, güclü dövlət olmaq da mütləqdir, çünki dünyada güc faktoru artıq aktuallaşıb. Güclü orduya sahib olmaq üçün güclü iqtisadiyyat da olmalıdır və aparılan islahatların bir istiqaməti də bundan ibarətdir. Eyni zamanda qeyri-neft sektorunun inkişafı və turizmin daha da bir ixrac potensialına çevrilməsi də vacib amildir". **A.Nağıyevin sözlərinə görə, prezidentin vurğuladığı ən vacib məqamlardan biri də balanslı və ya tarazlaşmış siyasətlə bağlı aydınlıq gətirməsi oldu:** "Bir daha qeyd etdi ki, biz mənəvi dəyərlərimizə hörmətlə yanaşır və siyasətimiz bu istiqamətdə qururuq. Bu, həm xarici həm də daxili siyasətdə mühüm rol oynayır. BMT və digər qurumlarla mühüm əlaqələrimiz, Qoşulmama Hərəkatındakı rolumuz da bunun bariz nümunəsidir". A.Nağıyev bildirdi ki, cənab prezident bütün bunların həyata keçirilməsində medianın da mühüm və müsbət rolunu qeyd etdi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə hesab edir ki, prezidentin cəmiyyətə ünvanladığı xüsusi mesajlarından hiss olunurdu ki, son dəyişikliklər fonunda İlham Əliyev məhz yerli televiziya kanalı vasitəsilə cəmiyyətə hansısa fikirlər çatdırmaq istəyib: "Əvvəla, ondan başlayaq ki, prezident uzun illərdən sonra yerli kanala müsahibə vermək qərarına gəldi və hiss olunurdu ki, dövlət başçısı ondan müsahibə götürən Mirşahini tələsdirmirdi. Birincisi, İlham Əliyev dedi ki, 2019-cu ildə sürətlə başladığı islahatları eyni sürətlə davam etdirəcək. "2019-cu ildən bizim islahatlarımızın yeni mərhələsi başlayır" deyən prezident islahat hazırlıqlarına dair belə bir cümlə işlətdi: "Keçən ilin ikinci yarısından başlayaraq islahatların dəqiqləşdirilməsi, müəyyən edilməsi və ardıcıllığı haqqında çox geniş işlər aparılırdı və bu ilin əvvəlindən yeni islahatlara start verildi". Bununla prezident 2019-cu ildə islahatlara spontan başlamadığına və düyməyə basmaq üçün hərtərəfli təhlillər aparıldığına işarə vurdu".

**E.Şahinoğlunun sözlərinə görə, prezident Qarabağdan danışarkən əvvəllər də dediyi "dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür" fikrini bu şəkildə genişləndirdi:** ""Bu, yeni reallıqdır. Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq". Başqa sözlə, İlham Əliyevin indi danışıqlar apardığı Ermənistanın baş naziri Nikol Paşinyana və onun komandasının münaqişənin həllində addım atacağına ümidi və inamı yoxdur. Təsadüfi deyil ki, İlham Əliyev müsahibəsinin Qarabağla bağlı hissəsini bu cümlə ilə yekunlaşdırdı: "Güc amili həmişə gündəlikdə olub və olacaq"".

**❑ E.PAŞASOY,**
**"Yeni Müsavat"**

## "Sosial medianın gətirdiyi fəsadlar bizi narahat edir" - Əli Əhmədov

**"Sosial medianın gətirdiyi fəsadlar da var. Təbii ki, bu, bizi narahat edir. Bəzi hallarda bu, insanların hüquqlarının pozulması ilə müşayiət olunur, onlar təhqirə məruz qalırlar. Orada istənilən insanı təhqir etmək, mənəvi terrora məruz qoymaq çox asandır, burada müdafiə mexanizmi yoxdur".**

"Report"un xəbərinə görə, bunu Baş nazirin müavini, hakim Yeni Azərbaycan Partiyası (YAP) İcra katibi - sədr müavini Əli Əhmədov qeyri-hökumət təşkilatlarının təmsilçiləri ilə görüşündə deyib.

**O bildirib ki, belə hallar digər ölkələrdə də baş verir:** "Ayrı-ayrı ölkələrdə bunun qarşısının alınması yolları araşdırılır. Bəzi hallarda, hətta internetin məhdudlaşdırılması kimi addımlar atılır. Azərbaycanda bu məsələ ilə bağlı hüquqi baza mövcuddur, amma tətbiq mexanizmi yoxdur. Sosial şəbəkələr ictimai məkandır, şəxsi deyil. Evdə özünü necə aparırsansa, burada elə ola bilməzsən. Sənin hərəkətlərin başqalarının hüquqlarını pozmamalıdır. İnsanlara qarşı mənəvi terror hərəkətlərinin qarşısı alınmalıdır, bunun mexanizmi hazırlanmalıdır. Burada hüquqi, texniki baxımdan addımlar atılmalıdır. Mən internetin məhdudlaşdırılmasından tamamilə uzağam, amma bu məsələlər tənzimlənməlidir".

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019

# "16 ildir Prezident hər saat, hər an vətəndaşının yanındadır"

**Millət vəkili Jalə Əliyeva:** "Məmurlar prezidentin etimadını doğrultmağa borcludurlar, əks halda xalqla dövlət arasında süni maneələr yarana bilər"

**Millət vəkili Jalə Əliyeva ilə Milli Məclisin foyesində, işinin başından aşan vaxtında görüşdük. Xanım deputatla söhbətimizdə gündəmdə olan məsələlərə toxunmuşuq.**

J.Əliyeva prezidentin atdığı son addımlar, məmurların davranışları, sosial şəbəkələrin rolu, seçicilərinin üzləşdiyi problemlər və keçmiş məmurlar barəsində suallarımızı cavablandırıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:

***- Jalə xanım, prezidentin şəhid ailələri ilə bağlı sərəncamını, Şamaxıda zəlzələdən zərər çəkənlərlə görüşünü, meşələrdən meyvə yığımına cərimənin ləğvini idarəçilikdə yeni strategiya, qapıdan-qapıya kursu ilə əlaqələndirənlər var. Siz bu fikri bölüşürsünüzmü?***

- Cənab prezidentin şəhid ailələri, Şamaxıda zəlzələdən zərər çəkənlərlə görüşü, sosial sahəylə bağlı olaraq ardıcıl verilən fərmanlar, sərəncamlar Azərbaycan dövlətinin vətəndaşına diqqətinin növbəti təzahürü, nümunəsidir. Və bu proses bu gün başlamayıb. Bu proses uzun illərə dayanır. Azərbaycan dövləti hər zaman vətəndaşının yaxşı yaşaması üçün planlı tədbirlər, layihələr həyata keçirir.

Özünüz də gördünüz ki, prezidentin görüşlərdə dilə gətirdiyi səmimi fikirlərin, jestlərin hər biri müsbət qarşılandı, dövlətlə xalqın birliyini bir daha nümayiş etdirdi.

Ötən zaman ərzində ölkədə həyata keçirilən siyasət, dövlət başçısının ilk dəfə prezident seçildiyi 2003-cü ildə "mən hər bir azərbaycanlının prezidenti olacağam" vədi tam doğrulub.

Bilirsiniz ki, şəhid ailələrinə birdəfəlik 11000 manat məbləğində yardım ayrılması barədə ölkə başçısının fərmanı oldu. Sonra bu fərmanın icrası ilə bağlı müəyyən problemlər yarandı; belə ki, illər əvvəl bu qəbildən ailələrə ödənən kompensasiya ilə devalvasiyadan sonra bugünkü təzminatın məbləği arasında fərq meydana çıxmışdı. Bu da həmin kəsimi narahat edirdi, hətta bəzi ailələr müraciət edirdilər ki, guya zamanında bu kompensasiyanı ümumiyyətlə almayıblar və ya onların yerinə kimsə alıb və s. Biz o zaman qəbula gələn seçicilərə də bildirmişdik ki, məsələ dövlətin nəzarətindədir və həllini tapacaq. Və həqiqətən tapdı da. Cənab Prezident bu məsələni nəzarətə götürdü.

Hətta 1997-ci ildə müavinət almış ailələrə belə son fərmanın yenidən şamil olunması dövlətin humanizmini və Prezidentin böyük qəlbini bir daha ortaya qoydu.

Amma bəzi media orqanlarında bəzən düzgün olmayan şərhlər verildi. Mən Azərbaycanda nəşr olunan mətbuatı nəzərdə tutmuram, çünki ölkəmizdəki media kifayət qədər sağlamdır, hətta müxalifyönümlü mətbuat da artıq ölkədəki inkişafı görür, ağa qara demir. Bu, əlbəttə, müsbət tendensiyadır. Lakin ölkə xaricində müəyyən qrupların və qüvvələrin mənafeyinə xidmət edənlər var. Əfsuslar olsun ki, onlar atılan hər düzgün addımda əyrilik, fərqli çalar axtarmağa çalışırlar.

Prezidentin şəhid ailələri ilə bağlı sərəncamından, bu ailələrlə görüşündən, Şamaxıya son səfərindən mənfi nəticə çıxarmaq cəhdi, cəmiyyətin müsbət fikrini zorla digər məcraya yönəltmək istəyi heç bir vətəndaşlıq kriteriyasına sığmır.

Sual verirsiniz ki, deyirlər ki, son görüşlər, fərmanlar yeni strategiyadır. Xeyr, əsla belə deyil. Çünki 16 ildir elə bir ay yoxdur ki, prezidentin hansısa rayona, hətta bir ayda bir neçə rayona səfər etdiyinin şahidi olmuşuq. 16 ildir bölgələrin inkişafı ilə bağlı həyata keçirilən proqramların bəhrəsini görürük. 16 ildir Prezident hər saat, hər an vətəndaşının yanındadır. 15-20 il əvvəl biz deputatlara ayda 200 şikayət məktub gəlirdisə, indi 5-10 məktub gəlir.

Bizim üçün lokal, regionlarda yaşayanlara isə qlobal görünən problemlər - yol, qaz, su, işıq, məktəb, xəstəxana tikintisi, yolların çəkilməsi və s. ilə bağlı məsələlər artıq həllini tapıb. Bu, əlbəttə ki, sevindiricidir.

Qaldı ki, dövlət idarəçiliyində strategiyanın dəyişdiyini iddia edənlərə, bu qətiyyən belə deyil. Bəlkə prezidentin 16 ildir davamlı olaraq həyata keçirdiyi siyasəti görmək istəməyənlər, indi görməyə başlayıblar, bax bu başqa məsələ.

***- Amma xalqla son təmasları müxalifətin 19 yanvar mitinqinin təsiri kimi qiymətləndirənlər var...***

- Buna başqa yöndən qiymət vermək, mitinqlə bağlamaq da gülüncdür. 19 yanvar mitinqi Azərbaycanda keçirilən ilk mitinq deyildi ki, hakimiyyət qorxuya düşsün. Bu gün Azərbaycan prezidentinin arxasında 10 milyonluq bir xalq ordusu dayanır. Mitinqə toplaşan 2000-3000 nəfər böyük bir xalq ordusunun qarşısında nədir ki? Bir də ki, demokratik bir ölkədə mitinq normal bir haldır. Yetər ki, bu mitinqlər qanun çərçivəsində olsun, asayişi pozmasın, insanları narahat etməsin.

Siz bir dövlət göstərin ki, orda iğtişaşlar törətmək, qarışıqlıq yaratmaq istəyənlər olsun və həmin dövlətdə bu hərəkətlərin qarşısını almaq üçün tədbir görülməsin. Biz cəngəllikdə yaşamırıq axı. Sivil bir dünyanın nümayəndələriyik və belə hallar heç bir dövlət, o cümlədən Azərbaycan üçün keçərli deyil. Prezident - xalq təmasını da mitinqə bağlamaq cəhdi, həqiqətləri görməzlikdən, müşahidəsizlikdən irəli gəlir.

Azərbaycanda gedən prosesləri sağlam təfəkkürlə izləyənlər üçün bu görüşlər, fərmanlar yeni mənzərə deyil, prezidentin davamlı atdığı addımların növbəti uğurlu səhifəsidir.

***- Ümumiyyətlə, olmazmı məmurların bəzi qərarları ictimai müzakirəyə, parlamentin polemikasına çıxarıldıqdan sonra verilsin, xeyirli və zərərli tərəfləri incələnsin, əhali tərəfindən necə qarşılanacağı hesablansın, sonra rəsmiləşsin?***

***Məsələn, meşələrdə meyvə yığımına görə cərimənin böyük etirazla qarşılanması və bir gün sonra prezident tərəfindən baş nazirin qərarının ləğv edilməsini deyə bilərik...***

- Biz bir neçə il əvvəl parlamentdə təklif irəli sürmüşdük ki, məmurlar prezidentdən nümunə götürüb tez-tez rayonlara səfərlərə çıxsınlar, vəziyyətlə yerində tanış olsunlar. Artıq bu yaxşı bir ənənə halını alıb. Nazirlər, komitə sədrləri regionlarda görüşlər keçirir, vətəndaşları qəbul edirlər. Bu da ümumi işimizin xeyrinə olan addımlardır.

Məmurlar prezidentin etimadını doğrultmağa borcludurlar. Əks halda xalqla dövlət arasında süni maneələr yarana bilər.

Meşələrlə bağlı qərara gəlincə, bu, təbiətin geniş mənada qorunması yönündə verilmiş qərar idi. Təbiətin, flora-faunanın mühafizəsi nəzərdə tutulurdu.

Əgər meşələrdə heyvan ovu qadağandırsa, ağacların qırılması, bitki örtüyünün yox edilməsi də əslində yolverilməzdir. Yəni geniş anlamda verilmiş qərar idi.

Sadəcə, bəziləri özünə sərf elədiyi kimi, dar mənada anladı, şərh etdi. Meşələrdən meyvə yığımı kənd əhalisinin günlük qazancının məhdudlaşdırılması kimi qəbul edildi. Bəli, bu da bir həqiqətdir ki, insan amili ilə birbaşa bağlı olan bəzi məqamlar var ki, qərar verərkən daha həssas bir yanaşma tələb edir. Prezident, qeyd etdiyiniz kimi, qərardan dərhal sonra məsələyə reaksiya verdi. Və qərarın təbtiqi dayandırıldı.



Çünki bu sərvətlər nə qədər torpağın, dövlətindirsə, bir o qədər də xalqındır. Və sərvətlərin qanunlar və qaydalar çərçivəsində istifadəsi normaldır.



***- Siz incə detalları düşünərək addımlar atılmasının, çıxışlar edilməsinin vacibliyini vurğuladınız. Bəzən millət vəkilləri arasında sosial şəbəkələri bağlamağa, fəaliyyətini məhdudlaşdırmağa çağırışlar olur. Bunu daha çox xaricdəki söyüş yağdıranlarla əlaqələndirirlər. Sizcə, indiki zamanda sosial şəbəkələrin fəaliyyəti məhdudlaşdırılmalıdırmı?***

## "Elə dəyərlər var ki, onu qorumaq üçün müsbət mənada senzura tətbiq etmək lazımdır"

- Bu ağrılı məsələdir. Məni bir ana, bir ziyalı, bir qadın kimi narahat edir. Mənim də evimdə gənclər var, uşaqlar böyüyür. Əlbəttə, heç bir normal ailə istəməz ki, övladları, ailə üzvləri və ümumiyyətlə ətrafı bu hədyanları görsün, oxusun. Özünə hörmət edən adam o səpkili yazılara baxmaz. Amma nə etməli ki, cəmiyyət müxtəlif zümrələrdən ibarətdir, günlük boşluğunu, məşğuliyyətsizliyini kompensasiya etmək istəyənlər, sensasiya axtaranlar bəsit informasiyalara, səviyyəsiz xəbərlərə baş vururlar. Bu nöqteyi-nəzərdən həmkarlarımız arasında təkliflər səsləndi, haqlı idilər. Tək deputatlar yox, cəmiyyətin bütün təbəqələri narahatlıqlarını dilə gətirdilər.

Bilirsiniz ki, Azərbaycanda 5 min çap orqanı qeydiyyatdan keçib, özəl telekanallar, internet televiziyaları var.

Elə zamanda yaşayırıq ki, informasiya bolluğudur, bu informasiyalar səndən icazə almadan sənin ətrafını bürüyür, həyatına müdaxilə edir. Bunun qarşısını tamamilə almaq qeyri-mümkündür və buna çalışmırıq da. Azərbaycanda internetə heç bir məhdudiyyət yoxdur. Bu, özlüyündə demokratiya göstəricisidir. Amma internetin azad olması, sosial şəbəkələrdə hədyanlar, təhqirlər yağdırılması, etikaya riayət edilməməsi, kiminsə öz əxlaqını topluma diktə etməsi anlamına gəlmir.

Elə dəyərlər var ki, onu qorumaq üçün müsbət mənada senzura tətbiq etmək lazımdır. Bu bizim dilimizdir, dinimizdir, əxlaqımızdır, torpağımızdır, vətənimizdir, bayrağımızdır, dövlətimizdir, anamızdır, övladımızdır. Bunlar müqəddəs dəyərlərdir. Hansısa qüvvə bu müqəddəs dəyərlərimizə dil uzadarsa, əl uzadarsa cavabını qəti və kəskin şəkildə alacaq. Hər bir ölkəni qanunlar idarə edir. Heç kim, digərinin konstitusion hüququnu poza bilməz. Bu kimi hallarda qanunların dili ilə danışmaq daha uyğun olar. Eyni zamanda bu hədyanların, təhqirlərin, söyüşlərin qarşısını almaq üçün ictimai müzakirələr, ictimai qınaq vacibdir. Yeri gələrsə qanun sərtləşdirilə bilər. Ancaq düşünürəm ki, ən böyük ölçü insanın vicdanıdır və onları öz vicdanının öhdəsinə buraxmalıyıq.

Digər tərəfdən, indi sizə sual edirəm, bu dırnaqarası vətən təəssübkeşləri əli onminlərlə azərbaycanlının günahsız qanına batan Ermənistan hakimiyyətini, onların dəstəkçilərini, Azərbaycan xalqının haqqını görməzlikdən gələn fövqəldövlətləri görəsən bir dəfə də olsun leksikonlarındakı hətta ən yüngül söyüşlərə qonaq edibləmi? Təəssüflər olsun ki, yox! Ona görə içlərindəki hikkəni, kini kənara qoysunlar, Azərbaycana başqa prizmadan baxsınlar. Tənqidi təhqirə çevirməsinlər.

***- Jalə xanım, millət vəkili kimi fəaliyyətinizə də toxunmaq istərdim. İndi seçicilər sizə daha çox nədən şikayət edirlər?***

- Bayaq da qeyd etdim. 10-15 il əvvəllə müqayisədə seçici müraciətlərinin sayı nəzərəçarpacaq dərəcədə azalıb. Bu da artıq infrastrukturla, ayrı-ayrı məhəlli problemlərlə bağlı məsələlərin dövlət proqramları çərçivəsində öz həllini tapmasından irəli gəlir. İndi daha çox şəxsi xarakter daşıyan məsələlərlə bağlı müraciətlər olur.

Məsələn, kimisi övladının xaricdə təhsili üçün səfirlikdən viza alınmasında yardımçı olmağımızı xahiş edir, kimisi övladının təhsil ödənişlərində güzəşt xahiş edir. Hüquq mühafizə orqanlarına yolu düşənlər əfv olunmaqlarını və ya işə ədalətli baxılmasını istəyirlər.

Səhiyyə ilə bağlı müraciətlər daxil olur. Əsasən özəl klinikalarda bahalı müalicə və əməliyyat xərclərinin qarşılanması üçün köməklik istəyirlər.

Eyni zamanda işlə təmin olunmaq üçün müraciətlər edilir. Yəni, bu gün heç bir vətəndaş demir ki, qaz, su, işıq, yol, məktəb, bağça, xəstəxana yoxdur. Bütün bu məsələlər həllini tapıb. Həmçinin, müəyyən qurumlarda qapı arxasında qalan, yerli təşkilatlara sözünü demək üçün köməyimizə ehtiyacı olan vətəndaşlarla rastlaşırıq.

***- Uzun illər idarəetmədə olan və indi vəzifədən kənarlaşdırılan yüksək rənglı məmurlarla bağlı fikirlərinizi bilmək istərdik. Mətbuatda qınaq obyektinə çevrilirlər, nələrdəsə günahlandırılırlar...***

- Həyatda əbədi olan heç nə yoxdur. Eləcə də vəzifə. Bu stereotipdən də uzaqlaşmanın vaxtı artıq gəlib çatıb. Kiminsə vəzifədən getməsini bir sensasiya, bir faciə kimi qarşılayırıq.

Yüksək rənglı məmurların vəzifəyə təyin edilməsi və azad edilməsi Prezidentin müstəsna hüququdur. Buna yalnız o qərar verir. Və kiminsə bu qərarı şərh etməsi, ona don geyindirməsi yanlış bir yanaşmadır.

Dövlət məmuru, işlədiyi müddətdə ölkəsinə, xalqına xidmət edibsə, prezidentin tapşırıqlarını sədaqətlə, bacarıqla yerinə yetiribsə, bu əlbəttə təqdirəlayiqdir. Kiminsə vəzifədən azad olunması mütləq şəkildə onun belə deyək ki, günahkar olduğu anlamına gəlmir. Belə yanaşma yanlışdır. İdarəetmə hər zaman yenilik istəyir. Yeni kadrlara ehtiyac yaranır. Biz bəzən keçmiş məmurlar barəsində müəyyən yazılara, düşüncələrə rast gəlirik. Biz hüquq-mühafizə orqanı deyilik ki, onların fəaliyyətini və ya əməllərini təhqiq edək.

Əgər həmin məmurların pozucu əməli olubsa, bununla əlbəttə ki, əlaqədar təşkilatlar məşğul olur. Bizim isə əlimizdə heç bir əsas olmadan kiminsə ittiham etmək haqqımız yoxdur. Bu halda yazılanlar onları qaralamaq və sensasiya axtarmadan başqa bir şey deyil.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# “Azərbaycanda mitinq dövrü bitib”

## Bəxtiyar Sadıqov: “Kimsə hesab edirsə ki, mitinqlərlə Qarabağ məsələsində nəsə dəyişəcək, yanılır...”

**Son aylarda ölkə iqtidarının mitinq müraciətlərinə rədd cavabı verməsi bəzi fikirlərin meydana çıxmasına səbəb olub. Müxalifət təmsilçiləri hakimiyyətin ondan çəkindiyi üçün aksiyaların keçirilməsinə icazə vermədiyi barədə sosial şəbəkələrdə kampaniyalar təşkil edirlər.**

Xüsusilə bu hal Milli Şuranın 26 yanvar aksiyasına və Qarabağ Komitəsinin fevralın 16-na planlaşdırdığı “Qarabağa azadlıq!” mitinqinə mənfi cavab verilməsindən sonra daha da artıb. Müxalif camiyə düşünür ki, Milli Şuranın 19 yanvar mitinqinə icazə verən hakimiyyət həmin aksiyaya əvvəlkilərə nisbətən daha çox iştirakçının qatıldığını görərək bu cür qərar verib.

**“Azərbaycan” qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov** hakimiyyətin mitinqlərdən çəkinmədiyini düşünür: “Çox təəssüflər olsun ki, Azərbaycan dövləti öz vətəndaşlarına, müxalifətə, QHT-lərə, ayrı-ayrı qurumlara demokratik qaydada yanaşanda, onun müraciətlərinə hüquqi, əsaslandırılmış şəkildə cavab verəndə bunu bəziləri sosial şəbəkələrdə "iqtidar bizdən qorxdu" kimi qələmə verirlər, belə qiymətləndirməyə çalışırlar. Əgər dövlətimiz Fransada olduğu kimi mitinqi adamları döyməklə, insanların gözünü çıxarmaqla, 11 nəfəri öldürməklə dağıtsa, o zaman deyəcəklər ki, dövlət güclüdür və ya bizdən qorxmur? Belə olanda razı qalacaqlar? Yaxud Amerikadakı kimi, polis şübhələndiyi adama, onun əmrinə tabe olmayana güllə atıb öldürsə, yaralasa, o zaman da deyəcəklər ki, dövlət güclüdür? Görün necə məntiqsiz yanaşmadır. Hesab etmirəm ki, Azərbaycan iqtidarı adamlardan, mitinqlərdən qorxsun. Prezidentimiz iki gün öncə televiziyaya müsahibə verdi və o müsahibədə də dedi ki, kim bizim haqqımızda nə deyirsə desin, biz hər şeyə, hər deyilənə öz işimizlə cavab vermişik. Azərbaycanda demokratiya, müxalifət var. İnsanlar öz fikirlərini sərbəst ifadə edə bilirlər. Anlamıram, əgər sənin qəzetin, saytın varsa, o zaman niyə birləşib “Məhsul stadionu”nu doldurmaq istəyirsiniz? Bu, nə yanaşmadır. Əgər sənin söz deməyə, adamlarını başına yığıb fikirlərini onlara çatdırmağa kifayət qədər vasitən varsa, iqtidara müxtəlif mətbuat orqanları vasitəsilə fikirlərini çatdıra bilirsənsə, bundan ötrü yığışmağa nə gərək var? Deməli, hökmən insanlara mane olmaq lazımdır. Orada görünmək partiya rəhbərlərinə lazımdır ki, bunun vasitəsilə qrant alsınlar. İşi-gücü olan adam şənbə-bazar günləri gedib dincələr, ailəsi ilə vaxt keçirər. Mitinqdə haqlı və ya haqsız qışqırıb-bağırmaq, kiməsə böhtan atmaq vaxtı keçmiş mübarizə üsuludur. Hesab edirəm ki, indiki vaxtda Azərbaycanda mitinq keçirməyə, sözünü mitinq formasında deməyə heç bir gərək yoxdur. Əgər kimsə hesab edirsə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı o mitinqdə tribunadan danışmaqla onun dediyi həyata keçəcək yaxud nəsə dəyişəcək, əmin olun ki yanılır. Mən özüm ağdamlıyam, oradan seçilmiş deputatam. Azərbaycan prezidenti qədər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışan, o sahədə çox iş görən ikinci şəxs tanımıram. Prezidentimiz qədər özünün bütün qüvvəsini, enerjisini, görüşlərdəki vaxtını, hər anını, dəqiqəsini o münaqişənin həlli üçün sərf edən ikinci bir adam Azərbaycan tanımıram. Mitinq keçirmək istəyən insanlar bunu dərk etməlidirlər. Çıxıb meydana “Ya Qarabağ, ya ölüm!” deyirsən, emosiyanı ifadə edirsən, axı bu münaqişənin həllində heç nəyi dəyişmir. Əksinə, ölkəmizdə sabitlik qalacaqsa, ölkəmiz iqtisadi cəhətdən inkişaf edəcəksə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xalqın birliyi olacaqsa, bu daha çox münaqişənin həllinə kömək edir. Xalqımıza və dövlətimizə də bu lazımdır. Əgər sənin gücün varsa, danışıqlarda prinsipialsansa, müxtəlif vasitələrdən istifadə edirsənsə, ayrı-ayrı ölkələrin rəhbərləri ilə bu istiqamətdə işlər aparırsansa, mitinqlərə nə gərək var ki? Münaqişənin həllinə bunlar kömək edir. Bu gün mitinq keçirmək əvəzinə hər kəs öz sahəsində elə çalışsın ki, dövlətinin güclənməsinə öz töhfəsini versin. Boş danışıqla, haradasa qışqırmaqla məsələlər həll olunmur. Onun zamanı keçib, 90-cı illərdə qalıb".



❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Dünya türklərinin Qarabağ harayına qoşulmamasının səbəbləri

## Tənzilə Rüstəmxanlı: “Görünür, bunda bizim də günahımız var, Orta Asiyada türk dövlətləri ilə bu istiqamətdə yaxşı işləyə bilməmişik”

**“Türkün türkdən başqa dostu yoxdur” şüarı Azərbaycanın Qarabağ dərdinə şəriklikdə heç də bütün türk dünyasını əhatə eləmədi. Nə Suriyadakı türkmanlar, nə Orta Asiyada türkdilli xalqlar, nə Rusiyada yaşayan 30 milyon tatar yurd-yuvası işğal edilən Qarabağ türklərinə, bütövlükdə Azərbaycan alqına sidq ürəkdən dəstək oldular.**



Uzaq Çin uyğurlarından, yaxın Qazaxıstan, Türkmənistan, Qırğızıstan türklərinin milli təşkilatlarından da Qarabağın azadlığı üçün dünyaya hayqıranlar olmadı.

Bu illər ərzində Türkiyənin müəyyən dəstəyini, ürək yanalığını Azərbaycanın yanında olduğunu gördük. Həmçinin, qismən İraq türkmanları, İrandakı soydaşlarımızın dəstəyini müşahidə etdik.

Hətta Pakistan belə Qarabağ məsələsində daha çox Azərbaycana ürək qızdırıb, nəini özbəklər, türkmənlər və s. türkdilli xalqların milli birlikləri, partiyaları...

Halbuki, Qarabağın azadlıq tələbi ilə dünya türklərinin çox güclü, ardıcıl tələbləri olmalıydı. Axı müasir dövrdə neçə türk torpağı işğal edilib ki, onlara baş qarışsın?!

Nə özbək, nə türkmən, nə digərləri yurd-yuvasından didərgin salınmayıb, başqa bir dövlətlə ərazi konfliktləri yoxdur.

O baxımdan dünya türkləri Qarabağ məsələsində sıxılmış yumruq kimi olmalıydılar. Təəssüf ki, bu həmrəylik lazımi səviyyədə nümayiş olunmayıb.

**“Azəri Türk Qadınlar” Birliyinin sədri Tənzilə Rüstəmxanlı** “Yeni Müsavat”a bildirdi ki, türk dövlətlərindən umduğumuz dəstəyi görə bilməmişik: “Türkiyə istisna olmaqla, digər türk dövlətləri Qarabağ, Xocalı soyqırımı ilə bağlı gözlədiyimiz addımları atmayıblar. Türkiyə dövlət olaraq ortaya ciddi siyasət, mövqe qoyub, Qarabağ məsələsində heç bir güzəştə getmir.

Görünür ki, bunda bizim də günahımız var, Orta Asiyada türk dövlətləri ilə bu istiqamətdə yaxşı işləyə bilməmişik. Amma müstəqil türk dövlətləri Qarabağ, Xocalı ilə bağlı mütləq addımlar atmalıdırlar, səslərini qaldırmalıdırlar.

Özbəkistan, Türkmənistan xalqları acılarımızdan xəbəri olsa, onlar da Türkiyə kimi səsini ucalda bilər. Bu məsələdə müəyyən qədər Qazaxıstan daha həssasdır. Yaxşı olar ki, digər türk dövlətləri də ortaya ciddi mövqe qoysunlar.

Amma kim uyğurlara edilən zülmlərə görə səsini qaldırır? Biz onlar üçün hansı etiraz səsimizi ucaltmışıq? Əzilən və zülm edilən uyğurlar bu vəziyyətdə bizə nə dəstək verə bilər?"

**T.Rüstəmxanlı hesab edir ki, Rusiyada yaşayan türk toplumları da dövlətin təzyiqi altındadır və səslərini çıxara bilmirlər:** “Rusiya Qarabağ problemini yaradan dövlətdir və oradakı türklərə səsini qaldırmağa imkan vermir. İranın da öz dövlət siyasəti var, Ermənistanla əməkdaşlıq edir. Yəni, bir az özümüzdə günah axtarmalıyıq ki, niyə Türkmənistanda, Özbəkistanda Xocalı barəsində bilmirlər.

Çünki türk dövlətləri soyqırımı tanıya bilərdilər. Necə ki, ermənilər 100 ildir özlərinin qondarma soyqırımı üçün mübarizə aparır. Diasporlar daha çox işləməlidir. Diasporla İş üzrə Dövlət Komitəsi son vaxtlar xeyli işlər görüb. Amma üstünlüyü QHT-lərə, ictimai qurumlara vermək lazımdır. Azərbaycan dövləti onlara dəstək verməlidir".

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

# Dilqəmlə uyğur ozanı birləşdirən qəm



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**İnsan haqları dövlətlərin daxili işi deyil. Əfsus ki, bunun real tətbiqini çox vaxt yalnız kiçik dövlətlər üzərində görürük. İri dövlətlərə isə sanki hər şey mübahdir. Onlar öz maraqları naminə təməl haqları pozub o yana da keçərlər.**

Universal dəyər sayılan insan haqlarına münasibətdə bu üzdən hərənin öz tərifi ortaya çıxıb - dünyada indi sanki həqiqi, bir növ “brend” insan haqları var, bir də dünyaya sırınan saxta, “kitayski” haqlar. “Kitay” demişkən, Çində uyğurların başına gətirilənlər, hakimiyyətin onları zorla öz türk kökündən, mədəniyyətindən, dinindən qoparıb manqurtlaşdırmaq siyasəti aparması bu dövlətin iç üzünü bir daha açıb.

Çin böyük nüvə dövlətidir, amma demokratik ölkə deyil. Burası bəlli. Amma demokratik azadlıqlar onun da daxili işi sayılmır! Rəsmi Pekinin XXI əsrdə (!!) ölkədə “təzədən tərbiyələndirmə” adı ilə konsentrasiya düşərgələri qurub sırf etnik əlamətə görə yüz minlərlə insanı ora doldurması doğrudan da insanlığa həqarətdir. Qardaş Türkiyə buna haqlı olaraq sərt etiraz bildirib. Xüsusən də uyğur ozan və milli fəal Əbdürrəhim Heyitin düşərgədə ölməsi milli haqlar bir yana, elementar insan haqqı mövzusunu yenidən gündəmə gətirib.

XXI əsrdə bu cür düşərgələrin qurulması əlbəttə ki, iyrənc, bəşər adına utancvericidir. Ancaq Pekin yetkililəri unudur ki, informasiya-texnologiya əsrində belə gizli konslagerlər yaradıb özünü sivil dövlət kimi aparmaq daha mümkün deyil. Dünya çox kiçilib.

İnsafən, məsələyə Ankara ilə yanaşı, Vaşinqtondan da kəskin etirazını gördük. Ola bilsin, ABŞ Çinlə ticarət savaşı içində olduğu üçün Pekinin üstünə getməyə bəhanə tapıb və Çinin beynəlxalq nüfuzuna zərbə vurmağa çalışır. Yəni Amerika da insan haqlarından ilk növbədə öz maraqları naminə istifadə edir. Hər necə olmasa, ABŞ-ın təməl haqlara münasibətini jurnalist Camal Qaşıqçının qətlinə reaksiyadan gördük. Ağ Ev maddi maraqları, Səudiyyə Ərəbistanı ilə çoxmilyardlıq silah kontraktlarını insan haqqından üstün tutdu.

İstənilən halda Vaşinqtonun uyğurlarla bağlı reaksiyası təqdirediciir. Əfsus ki, analoji reaksiyanı əhalisinin yarıdan çoxu türk olan qonşu İrandan və ərazisində 20 milyona yaxın türkdilli xalqların yaşadığı Rusiyadan görmədik.

Son vaxtlar Güney Azərbaycanda güneyli siyasi fəalların təqibini gücləndirən İranın oxşar siyasəti yürüdən Çindən əslində böyük fərqi yoxdur. Hərçənd, Çində heç olmasa, türkdilli uyğurların muxtariyyəti var, İranda isə 30 milyonluq azərbaycanlı türk mədəni muxtariyyətə belə həsəddir, azərbaycanlı balalar farsca təhsil almaq zorundadır.

Bunlar bir qırağa. Məsələ ondadır ki, Çin türklərin yaşadığı ərazilərdə üstəlik, “kitayski islam” yaradaraq, yerli əhalini həm də dini kökündən qoparmağa çalışır. O zaman özünü “İslam Respublikası” sayan İran nədən buna reaksiya vermir? Nə üçün o, heç olmasa, ümmət maraqlarından çıxış eləmir? Axı uyğur türkləri də müsəlmandır.

Cavab bəsitdir: çünki Tehran üçün də bu məsələ dövlət maraqlarına gedib çıxır: İran ona görə etiraz eləmir ki, Çin ABŞ-dan fərqli olaraq, İrana qarşı sanksiyalar siyasətinə qoşulmayıb, əksin, İranın böyük neft alıcılarından biridir. Bu basabasda, Amerika sanksiyaların tüğyan elədiyi dönəmdə “it əti yeyənlər”in xətrinə dəymək olmaz...

Rusiyaya gəlincə, xarici işlər naziri Sergey Lavrov uyğurların başına gətirilən dəhşətlərlə bağlı “məlumatsız olduğunu” bildirib. “Biz başqa ölkələrin daxili işlərinə qarışmırıq və əlaqələrimizdə problem tapmağa çalışmırıq. Onu bilirik ki, Sinzyam-Uyğur Muxtar rayonunda ekstremistlərlə bağlı problem nə dərəcədə ciddidir” - Lavrov deyib.

Lavrov beləcə, uyğurlara qarşı zorakı, anti-insani siyasətə haqq qazandırıb. Azadlıq istəyən məğrur çeçen xalqına qarşı repressiyaları da Moskva eyni motivlə həyata keçirmişdi. Üstəlik, hazırda Çin və Rusiya ABŞ-a qarşı eyni düşərgədə təmsil olunub. Yəni ki, cəhənnəm olsun insan haqqı, müttəfiqin xətrinə dəymək olmaz...

Amma Rusiya Bakı hava limanından geri qaytarılan erməni əsilli bir neçə vətəndaşına görə Azərbaycana az qala nota verdi. Məsələni Bakı qarşısında dönə-dönə qaldırdı. Di gəl, Xankəndində illərdir haqsız yerə həbsdə saxlanılan və işgəncələrə məruz qalan başqa bir Rusiya vətəndaşının - Dilqəm Əsgərovun taleyi nə Lavrovun, nə də ümumən Rusiya hökumətinin vecinədir.

**Səbəbini artıq dedik...**



# Sosial təhqiratlar

Zamin HACI
zaminhaci@gmail.com

"Ay küçə,
Bu gecə
Bir qərib keçəcək səndən.
Diksinib eləmə -
ayaqları yalındı".

*(Rauf Qaraişıq)*

**Sosial Tədqiqatlar Mərkəzinin yaradılması, xüsusən də bunun 14 fevral ərəfəsində edilməsi və idarəyə Zahid Orucun müdir qoyulması bir daha sübut edir ki, iqtidar xalqı düşünür, xalqın problemlərini araşdırıb nəticələr çıxartmağa çalışır. AXC-Müsavat dövründə belə mərkəz yox idi, o üzdən yıxıldılar. Xalqın rəyini öyrənmək, camaatın nə fikirləşdiyini bilmək idarəçilikdə önəmlidir, çünki hələlik xalqsız dövlət qurmaq mümkün olmayıbdır. İnşallah... Xalqın səsi isə dövri-qədimdən siyasətçiləri düşündürübdür, misal üçün, Qədim Romada buna "vox populi" adı qoymuşdular. Sonralar belə latın ata sözü də yaranmışdır: "Vox populi vox Dei". Tərcüməsi "Xalqın səsi, Tanrının səsidir" deməkdir.**

Zahid müəllimin xalqa yaxınlığı isə dəfələrlə isbata yetmişdir. Həmişə o, parlamentdə xalqın səsini qaldırıbdır, buna görə təzyiqlərə məruz qalıbdır. Srağagün spiker Oqtay Əsədovun bu vəzifə münasibətilə Zahid müəllimi təbrik etməsinə, qutlamasına o qədər də səmimi hərəkət kimi yanaşmayın. Dəfələrlə biz şahid olmuşuq, Oqtay müəllim Zahid müəllimin sözünü kəsibdir. Hətta bir ara ona danışmaq qadağası qoymuşdu. İndi nə oldu, vəzifə alan kimi təbrik etdi? Əlbəttə, çəkinməyə haqqı var. Nəinki spikerin, elə hər bir vəzifəli şəxsin. Çünki indən belə Zahid müəllimin əlində təkcə xalqdan aldığı deputat mandatı yox, dövlət başçısından aldığı Sosial Tədqiqatlar Mərkəzi sədrinin mandatı da vardır. Özü də mən düşünürəm, ikincisi daha təhlükəli mandatdır. Misal üçün, Zahid müəllim sosial təhqiqatlar nəticəsində xalqın narazı qaldığı konkret şəxsləri aşkara çıxarıb rəhbərliyə təqdimat yazarmı? Yazar. Ona etimad və etibarı elə buna görə göstəriblər. Sözgəlişi, Zahid müəllim 20 ilə yaxındır deputatdır, lakin bir jurnalist çeçələ barmağını qatlayıb deyə bilməz ki, onun filan-filan yerlərdə dükanı-zadı vardır. O cümlədən, özü də daim tənqidlərə açıqdır, müzakirələrdən çəkinmir. Örnək üçün, haçan baxsan, istənilən platformada (buraya Amerikanın radioları da daxildir - halbuki, başqa iqtidar nümayəndələri o radioların efirindən qorxurlar) hakimiyyəti müdafiə etməyə çalışır. Onun bir dəfə parlament seçkilərindəki şüarı isə dillərdə dastan olmuşdu: "Ramazanda oruc, seçkidə Zahid Oruc!". Partiya rəhbəri Fəzail müəllim bu şüardan təsirlənərək "Seçkidə Fəzail Ağamalı, Gününüz olsun ağlamalı!" şüarını irəli sürmüş, yaxşı səs toplamışdı. Hərçənd, mən düşünürəm ki, bu tip seçki şüarlarının içərisində ən maraqlısını vaxtilə cəbhəçilər fikirləşmişdi: "Ümid var Kələkiyə, Səs versək Elçibəyə!".

Uzun sözün qısası, sosial təhqiqatların aparılması yaxşıdır, ancaq bizim bir həlli vacib problemimiz də vardır, bu isə sosial təhqiratlardır. Bildiyiniz kimi, hazırda camaat internetə, yutuba daraşıb bir-birini söyməyə girişibdir, xaricdən maliyyələşən bir qrup yaramaz isə iqtidar nümayəndələrini daha çox söyürlər. Deputatlardan Səyavuş müəllim təzəlikcə buna diqqət çəkdi, iqtidardan ev almış jurnalistləri o söyüş nöqtələrini susdurmağa səslədi. Məncə, haqlı tələb idi, dünyada müftə heç zad yoxdur. Müftə pendir siçan tələsində olur - bunu ingilislər deyiblər. Fikrimcə, həmin tiplərin söyüş pulemyotlarına sinə gərən Matrosov, Gəray Əsədov kimi oğullarımız az deyildir, ancaq bunların hansısa bir idarəsini yaratmaq, əks-mübarizəni mərkəzləşdirilmiş formada aparmaq yaxşı olardı. Sosial Təhqiratlar Mərkəzində, əgər etimad göstərilsə, çalışa bilərəm - yaxşı söyüşlər bilirəm. Lakin bunun əvəzində ev istəmirəm, hesab edirəm, mənə küçə verilməlidir. Yox, acgözlük etmirəm, etsəm mikrorayon istəyərdim. Sadəcə, mən bir-iki dəfə səbrimi basıb o tərbiyəsiz söyüşçülər dəstəsinə azca qulaq asmışam, hamısı küçə uşaqlarıdır. Küçə uşaqlarına cavab vermək üçün adamın gərək şəxsi küçəsi olsun.

**İndi söz əlaqədar təşkilatlarındır.**




# Paşinyanın "sehrli çubuğu" - "iqtisadi inqilab" nağılı rəsmiləşdi, sonra?..

## Qarabağın azərbaycanlı icmasında sədr dəyişikliyinin daha bir hədəfi - Bakı "pas" verir; Ermənistanı Rusiyaya birləşdirən "göbəyi" Paşinyan kəsə biləcəkmi?

**Ermənistanın baş naziri Nikol Paşinyan srağagün hökumətin 5 illik proqramını parlamentə təqdim edib. Proqramda xarici siyasətin əsas prioriteti kimi Rusiyanın seçilməsi və Rusiyanın dominant olduğu əsas qurumlarda - Avrasiya İqtisadi Birliyi və KTMT-də *("Rus NATO-su")* İrəvanın təmsilçiliyinin davam etdiriləcəyi barədə yazmışıq. Bu, o deməkdir ki, yeni hökumət də işğalçı ölkənin Rusiyanın təhlükəsizlik sistemində qalmasında qərarlıdır.**

**Populist baş nazir xalqını vədlərlə yedizdirməkdə davam edir; sərhədlər açılmayınca iqtisadi sıçrayış mümkün olmayacaq, çünki...; Sergey Markov: "Blokada şəraitində Ermənistan iqtisadiyyatlını irəli aparacaq qüvvə yoxdur"; erməni siyasi şərhçi: "Kosmetik uğurdan artığı mümkün olmayacaq..."**

Parlamentdə çıxışı zamanı N.Paşinyan "ümumxalq iqtisadi inqilabı"nın başladığını da bəyan edib. "Yeni Müsavat"ın məlumatına görə, baş nazir ümidvar olduğunu bildirib ki, "məxməri inqilab"da qalib gələn xalq "iqtisadi inqilab"da da qələbə çalacaq. "Ermənistan hökumətinin yaxın 5 ilə əsas vəzifəsi yoxsulluğun və işsizliyin azaldılması və aradan qaldırılması, sənayenin və ixracın artımı olacaq". Bunu da Nikol Paşinyan deyib.

Ancaq necə, nə ilə? Bunu deməyib. Yəni 9 ay öncəki kimi yenə söz, vəd. Vəd vermək asan, onları tutmaq isə qat-qat çətindir - xüsusən də böhran içində olan bor ölkənin rəhbəri üçün. Hər halda hakimiyyətdə olduğu 9 ayda ölkəyə ciddi xarici sərmayə cəlb edə bilməyən Nikol yəqin ki, özü də buna əminlik hasil edib.

Bu səbəbdən ekspert çevrələrində hökumətin 5 illik proqramı deklarativ xarakterinə görə tənqidə tuş gəlib. Çünki Paşinyanın "iqtisadi inqilab" proqramında bir kəlmə də nə Azərbaycan və Türkiyə tərəfdən sərhədlərin açılmasından, nə də Dağlıq Qarabağ konfliktinin həlli vacibliyindən danışılmır. Halbuki bu iki faktor 1993-cü ildən Ermənistan iqtisadiyyatının inkişafına əsas əngəl olaraq qalır.

*****

**"Sərhədlərin blokadası istənilən şərtlərdə Ermənistanın normal inkişafına imkan verməyəcək".** Musavat.com-un məlumatına görə, bu barədə rusiyalı tanınmış politoloq, Moskvadakı Siyasi Tədqiqatlar Mərkəzinin direktoru Sergey Markov Paşinyanın iqtisadi "iqtisadi inqilab" proqramını "Vestnik Kavkaza" portalına şərh edərkən deyib.

"Ermənistanın iqtisadi sıçrayışı üçün şərtlərin bəziləri var, bəziləri isə yoxdur. Məsələn, Nikol Paşinyanın siyasi iradəsi və məsələyə sistemli yanaşması var, inkişaf istəyən əhalinin əksəriyyəti onu dəstəkləyir. Nədən ki, ölkə iqtisadiyyatı durğunluq içindədir. Eləcə də yüksək texnologiyalı, varlı Qərb dövlətlərinin siyasi dəstəyi var. Ancaq bunlar kifayət deyil. İlk növbədə ona görə ki, Ermənistan hələ də nizamlanmayan Dağlıq Qarabağ münaqişəsi hesabına iqtisadi blokada vəziyyətindədir", - deyə politoloq qeyd edib.

Ekspertə görə, blokada Ermənistanın hər hansı inkişafını əngəlləyən əsas maneədir: "Vəziyyəti qəlizləşdirən həm də odur ki, Ermənistanın özü balaca və dar bir bazardır. Ermənistan iqtisadiyyatı yalnız daha geniş bir bazarla inteqrasiyada inkişaf edə bilər. Belə bir bazar isə hələ ki yoxdur. Rusiya ilə o, loqistik maneələr (arada quru sərhəd yoxdur - red.), həll olunmamış Qarabağ konflikti və Gürcüstan vasitəsilə tranzit yolun zəif buraxılış qabiliyyəti səbəbindən belə inkişaf mümkün deyil".

Bundan əlavə, Markovun qənaətincə, Rusiya iqtisadiyyatının özü indi depressiv durumdadır. "Həmçinin İranın iqtisadiyyatla bağlı böyük problemləri mövcuddur. Yekunda Ermənistan iqtisadiyyatı haqda belə demək olar: "Nəfəs almaq istəyir, ancaq ağciyərləri açılmır". Bundan əlavə, ölkəyə ciddi sərmayə qoya biləcək erməni diasporun mövqeyi hələ də dəqiq deyil. Sözdə dəstək var, faktiki isə mən qəti şəkildə deyə bilmərəm ki, diaspordan investisiya dəstəyi olacaq", - deyə bildirib.

Beləliklə, aydın olur ki, Ermənistanda sırf oliqarxik-kriminal idarəçiliyi aradan qaldırmaqla ölkənin yaralarını sağaltmaq mümkün olmayacaq.

"Yenə də əsas odur ki, Azərbaycanla konflikt şəraitində sərhədlər bağlıdır. Üstəgəl, xaricdən və diaspordan, lap elə daxildən ciddi sərmayələr yoxdur. Nəticə etibarilə investisiyalar, texnologiyalar, bazarlar yoxdur. O da nəzərə alınmalıdır ki, iqtisadiyyatın özü sürətlə böyümür, ona hansısa drayver lazımdır. Çin drayver qismində Qərb ölkələrinin bazarları, investisiya və texnologiyalarından istifadə elədi. Azərbaycan - neft-qaz gəlirlərindən, Sinqapur - loqistik və maliyyə mərkəzlərindən istifadə edib. Paşinyan isə hələ də izah eləməyib ki, blokada şəraitində hansı qüvvə Ermənistan iqtisadiyyatlını irəli aparacaq", - deyə sonda Markov əlavə edib.

*****

Yazıçı-jurnalist, "Vesti FM" radiosunun aparıcısı Armen Qasparyan da ilk növbədə Ermənistanın inkişafı üçün blokadanın götürülməsinə diqqət çəkib. "İş ondadır ki, coğrafi baxımdan respublikanın yerini dəyişmək mümkün deyil. Hara hərləsən, Ermənistan yenə diplomatik münasibətlərin olmadığı Türkiyə və müharibə vəziyyətində olduğu Azərbaycanla həmsərhəd olacaq. Hər iki sərhəd də bağlı, faydalı qazıntılar yox".

Onun sözlərinə görə, o səbəbdən hazırkı məqamda Paşintyan populist kimi görünür. "Əlavə edim ki, Ermənistanın problemlərini yalnız öncəki prezidentlərin və hökumətlərin ayağına yazmaq lazım deyil. Axı qohumbazlıq ölkədə həmişə olub. Bu regionla bağlı müəyyən mental ənənələr var - nə barədə ki, hamı bilir. Və mən bunun kardinal şəkildə dəyişəcəyinə əmin deyiləm. Kosmetik uğur ola bilər. Ancaq çətin ki, bundan artığı mümkün olsun".

**Bundan artığı üçün isə yol bəlli - Qarabağ probleminin ədalətli həlli, Azərbaycan və Türkiyə ilə sərhədlərin açılması...**

❑ Siyasət şöbəsi,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019

# Söyün Sadıqovun həbsinin gizlinləri- kimin qəzəbinə tuş gəlib?

## **Aqil Əsədov:** "Hər bir azərbaycanlının problemi komitənin diqqətindədir"
## **Mahir Dərziyev:** "Onun muxtariyyətlə bağlı məlum çağırışını biz təxribat kimi qiymətləndiririk"
## **Zəlimxan Məmmədli:** "Bizlər onun taleyinə istənilən halda biganə olmamalıyıq"

**Xəbər verildiyi kimi, Rusiya Federasiyasının Rostov şəhərində azərbaycanlıların keçmiş diaspor rəhbəri Söyün Sadıqov həbs edilib. "Reket"likdə ittiham olunan "AzerRos"un sabiq rəhbəri güc yolu ilə 100 milyon rubl tələb etməkdə günahlandırılır.**

**Onun həbsi müəyyən çevrələrdə rezonans doğurub.** Bu da səbəbsiz deyil. Çünki S.Sadıqov sıradan biri deyil. O, Rusiya prezidenti Vladimir Putinə yaxınlığı ilə seçilir. 2012 -2018-ci illərdə Putinin etibarlı nümayəndəsi olub. Onun həbsi ilə bağlı bir sıra versiyalar var. İlk iddia Rusiyada yaşayan, Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovla bağlıdır. S.Sadıqovla A.Abbasov arasında zaman-zaman yaşanan gərginlik barədə mediada saysız-hesabsız xəbərlər var. Bu həbsdə A.Abbaosvun "əlinin olduğu" barədə ittihamlar səslənir.

**Bundan əlavə, S.Sadıqovun Gürcüstanda Xocalıda azərbaycanlılara qarşı törədilən soyqırımın iştirakçısı Mixail Avaqyana abidə qoyulmasına sərt şəkildə bildirdiyi etirazın da həbsə səbəb ola biləcəyi ehtimalları var.** Keçmiş diaspor rəhbəri gürcü iqtidarına iki ay vaxt verərək, abidə sökülməyəcəyi təqdirdə Gürcüstanda yaşayan soydaşlarımızı öz muxtariyyətlərini tələb etmək üçün ayağa qaldıracağını bəyan etmişdi.

S.Sadıqovun həbsi ilə Azərbaycanın Rusiyadakı səfirliyinin, Xarici İşlər Nazirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin hansı addımları atacaqları, məsələni araşdırıb-araşdırmayacaqları indidən suallar doğurur. Digər tərəfdən Putinə yaxın bir şəxsin uzun müddət həbsdə qalıb-qalmayacağı da müzakirələr sırasındadır.

**Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, İnformasiya və Analitik Təhlil şöbəsinin rəhbəri Aqil Əsədov** "Yeni Müsavat"a açıqlamasında məsələni diqqətdə saxlayacaqlarını bildirdi: "Bildiyiniz kimi, komitə xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti həyata keçirən mərkəzi icra qurumudur. Komitə əsasnaməsinə, o cümlədən, dövlət başçısının tapşırıqlarına uyğun olaraq xaricdə yaşayan azərbaycanlılarla bağlı davamlı şəkildə siyasəti həyata keçirir. Hər bir azərbaycanlının problemi komitənin diqqətindədir, o cümlədən, qeyd etdiyiniz məsələ də komitənin nəzərindədir. Hələ ki məsələlər təhlil olunur. Komitə hər bir azərbaycanlının məsələsinə həssas yanaşır".

Əslən Gürcüstandan olan S.Sadıqovun həmyerlilərinin də həbslə bağlı mövqelərini öyrəndik.

**Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev** S.Sadıqov barədə kifayət qədər sərt danışdı: "Söyün Sadıqovun adı hər zaman qalmaqallarda çəkilib. Buna təəssüf etməmək mümkün deyil. Son vaxtlar da bu adam daha çox həm Azərbaycan, həm də Gürcüstan gündəmində skandallarla yadda qalıb. O, Gürcüstan əsillidir, burada doğulub. Amma müsahibələrimdə də demişəm ki, onu Gürcüstanla heç nə bağlamır. Bölücülük etmək istəmirəm, amma açığı deyim ki, bu şəxsin kökü də Borçalı ilə bağlı deyil. Onun atası, babası başqa yerdən Borçalıya gəliblər. Amma bu fərq etməz. O da bizim soydaşımızdır. Söyün Sadıqov Gürcüstan azərbaycanlıları arasında heç bir nüfuza sahib olmayan adamdır. Nə bura gəlib gedən, nə də burada iş görən deyil. Bir xeyirli işi ilə bağlı belə yadda qalmayıb. Dediyim kimi, ancaq skandallarla yadda qalıb. Onun muxtariyyətlə bağlı məlum çağırışını biz təxribat kimi qiymətləndiririk. Bu adam çağırışı ilə iddia edir ki, Gürcüstanda yaşayan azərbaycanlılar potensial separatçıdırlar, bölücüdürlər. Düşünür ki, buradakı azərbaycanlılar bir insanın çağırışı ilə ayağa qalxa bilərlər. Onun bəyanatı kökündən yanlış idi, sırf təxribata hesablanmışdı. Söyün Sadıqovun heç bir mənəvi haqqı yoxdur Gürcüstan azərbaycanlılarına xitab etməyə. O faktiki şəkildə Gürcüstanın konstitusiya quruluşuna, ərazi bütövlüyünə qəsd edib. Gürcüstanın Cinayət Məcəlləsi ilə yəqin ki, nəzərdə tutulmuş bir neçə cinayət əməli törətmiş olurdu. Əminəm ki, Söyün Sadıqov nə zaman Gürcüstana gəlsə, hüquq mühafizə orqanları bəyanatla bağlı ona qarşı müəyyən işlər görərlər".

**Deputat S.Sadıqovun adının Rusiyada azərbaycanlı icması arasında daim Putinin yaxın adamı kimi hallandığını da qeyd etdi:** "Deyirlər ki, Söyün Sadıqov Rusiya xüsusi xidmət orqanlarının zabitidir. Hətta onu da deyirlər ki, Federal Təhlükəsizlik Xidmətinin polkovnikidir. O, eyni zamanda, Putinin müşaviri olub. Rusiya Mədəni Milli Muxtariyyətinə başçılıq edən şəxslərdən olub. Hər zaman müşahidə etmişəm və görmüşəm ki, Söyün Sadıqov Rusiya mənafeyinə sədaqətlə xidmət edən şəxsdir. Vaxtı ilə Azərbaycandakı prezident seçkiləri ilə bağlı Rusiyada qurulan planın əsas icraçılarından birinə çevrildiyi də bəllidir. Onun məsuliyyətsiz bəyanatları, hərəkətləri görünür, hər kəsi artıq bezdirib. Rusiya yetərincə korrupsioner bir ölkədir. Orada rüşvətxorluğa görə həbs olunma o qədər də ağlabatan deyil. Yəqin ki, Söyün Sadıqov sahiblərinin qəzəbinə düçar olub. Digər tərəfdən ola bilsin ki, ittiham olunduğu reket maddəsi üzrə etdiyi əməl bütün qırmızı cizgiləri keçib. Amma istənilən halda bu həbs Rusiyada Söyün Sadıqova qarşı olan etimadsızlıqla bağlıdır. Ona etimad göstərilsə idi, himayə olunardı, cinayət məsuliyyətindən yayındırardılar. Haradasa demək olar ki, Söyün Sadıqov işini görüb getdi. Onun nə qədər həbsdə qalacağını kimsə söyləyə bilməz. Amma görünən odur ki, Söyün Sadıqov Putinin qəzəbinə tuş gəlib, onun yanında olan etimadını itirib. Reket ittihamı inandırıcı deyil. Bu işin arxasında başqa məqamlar var. Bunu kimsə bilə bilməz".


Söyün Sadıqov

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** indidən S.Sadıqov barəsində konkret fikirlər söyləməyin mümkünsüz olduğunu söylədi: "Söyün Sadıqovun son bəyanatına hər kəs mövqe bildirdi. Bu həbslə bağlı konkret qənaətə gəlmək çox çətindir. Çünki o siyasi mərkəzə yaxın adamdır. Mətbuatdan aldığım informasiya əsasında bunu deyirəm. Əgər belədirsə, o bu şəkildə həbs edilməməli idi. Görünür, başqa səbəblər var. Rusiyada tanışıq, maliyyə çox şeyləri həll edir. İrəli sürülən ittihamın birbaşa doğru olduğunu söyləmək düzgün olmazdı. Söyün Sadıqovun vəkilinin açıqlaması olsa, müəyyən qənaətlərə gəlmək olar. Hər şeyi zaman göstərəcək. İstənilən halda kimsənin həbsini istəmərəm. Amma həbs əmələ uyğundursa, qanunlar çərçivəsindədirsə, hər kəs etdiyinə görə cəzasını çəkməlidir. Hüquqdan kənar həbs varsa, bu artıq siyasi məsələdir. Bütün hallarda Söyün Sadıqov bizim millətin adamıdır, həbsinə təəssüflənirəm. Ola bilsin ki, mərkəzi hakimiyyətlə müəyyən narazılıq baş verib və bu səbəbdən həbs baş verib. Düşünürəm ki, bizlər onun taleyinə istənilən halda biganə olmamalıyıq".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Lavrov Münhendə bizə hansı sürprizi edəcək?..



**Hüseynbala SƏLİMOV**

**Fevral ayında Münhendə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında növbəti görüşün keçiriləcəyi haqqındakı xəbərlər diqqətdən kənarda qalmadı, xüsusən də məlum olanda ki, görüşün formatı bir az dəyişdirilib - beləki, müzakirələrə Rusiyanın xarici işlər naziri S.Lavrov da qatılacaq.**

Bir qədər qəribə olsa da, siyasi analitiklərin və politoloqların nəzərləri daha çox sonuncu detala yönəlibdi - əgər rusiyalı nazirin familiyası yenidən hallanmağa başlayıbsa, bu, o deməkdir ki, danışıqlar prosesi yenidən ilkin məcrasına qayıdır, hansı ki, Ermənistandakı son "inqilabi hadisələr"dən və xüsusən amerikalı diplomat Con Boltonun Bakıya və İrəvana son səfərindən sonra bir azacıq dəyişmişdi və hətta çoxları artıq "Bolton planı"ndan danışmağa başlamışdılar.

Hərçənd ki, irəlicədən məlum idi ki, ortada heç bir konkret "Bolton planı" yoxdur, sadəcə, özünün İrəvana səfəri zamanı ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri tamam birmənalı şəkildə bildirmişdi ki, ölkəsi Cənubi Qafqazın, xüsusən də Ermənistanın bir çox problemlərinin həllini bilavasitə Qarabağ probleminin həlli ilə bağlayır.

Oxşar mövqe prezident D.Trampın N.Paşinyana ünvanladığı məktublarda da ifadə olunmuşdu. Odur ki, son danışıqlar prosesində bir növ Amerika atmosferi hökm sürürdü, çünki Rusiya daha çox özünün "cənub forpostu"nun yeni, inqilabi hökumətinə münasibətini aydınlaşdırmaqla məşğul idi.

Amma budur, "diplomatiya rəqqası" yenidən Moskvaya tərəf döndü və bundan sonra istəsən də, istəməsən də, köhnə tapmacalara cavab tapmaq lazım gələcək, hərçənd, bəzi ekspertlər bu fikirdədirlər ki, heç buna da ehtiyac olmayacaq, çünki danışıqlar prosesində ümidverici mərhələ artıq arxada qalıb və proses təzədən neqativ tərəfə istiqamət götürüb: Moskva yenə də prosesləri maraqlarına uyğun nizamlamağa çalışacaq və böyük ehtimalla sonda heç nə alınmayacaq, çünki özü üçün yenidən manevr sahəsi hiss edən İrəvan təzədən prosesi süni şəkildə uzatmağa və vaxt udmağa cəhd edəcək.

Bir tərəfdən, xoşbəxtlikdən prosesin gedişi təkcə üç regional vektordan (Rusiya, Azərbaycan və Ermənistan) asılı deyil, burada az-çox duyulan digər vektorlar da, məsələn, Türkiyə, İran və hətta ABŞ var, amma digər bir tərəfdən problem ondadır ki, Ankara daha çox Suriya problemi, İran isə ətrafındakı blokadanı az da olsa, yarmaqla, yumşaltmaqla məşğuldur. Elə ABŞ üçün də problemlər bəs edir, ən azı yaxınlıqda Venesuela var...

Odur ki, Moskvanın "yeni təşəbbüslər"ini izləməkdən savayı yolumuz qalmır, xüsusən də nəzərə alanda ki, bunlar elə hey israr edirlər ki, guya beş rayonun qaytarılması artıq Serj Sarqsyan dövründə razılaşdırılmışdı, halbuki biz bunun hər hansı bir əlamətini sezməmişik - bütün bu müddətdə Bakı ilə İrəvan arasında hərbi ritorika davam edib, üstəlik Bakı gizlətmir ki, Sarqsyanın hakimiyyətdən getməsindən heç də peşan deyil, əksinə, yeni hakimiyyətlə konstruktiv əməkdaşlığa hazırdır və ümid edir ki, bu hakimiyyət Dağlıq Qarabağ məsələsində öz sələflərinin siyasətini davam etdirməyəcək.

Bilavasitə Kremlin diplomatik səylərinə gəldikdə isə əlbəttə, demək olmaz ki, burada, ümumiyyətlə, heç nə yoxdur. Yada salaq ki, Sarqsyan vaxtında Moskva iki həll variantını - paket və mərhələli həll variantlarını uzlaşdırmağa çalışırdı. Amma ki, tərəflər Dağlıq Qarabağ üçün nəzərdə tutulan "aralıq status" məsələsində razılaşmadılar - İrəvan onda da Dağlıq Qarabağ üçün elə birbaşdan Azərbaycanın konstitusion sahəsindən kənarda status tələb etdi və proses buradaca da dayandı, daha sonra isə məlum hadisələr baş verdi.

Bununla belə qeyd etməliyik ki, Kreml çox mürəkkəb oyun aparır. Adi, formal məntiqə görə Ermənistanı sülhə məcbur etmək üçün Rusiya ona təzyiq etməli idi. Amma Kreml nə etdi? Öz "İsgəndər"lərini Ermənistanda yerləşdirdi! İndi də təxminən eyni proses gedir. Davosdan sonra Nikol məllim Moskvaya yollandı və dərhal xəbərlər yayıldı ki, Moskva simvolik qiymətlərlə İrəvana bir partiya qırıcı təyyarə satmaq niyyətindədir!

Hətta diplomatiyanın incəliklərinə bələd olmayan adamlar bilirlər ki, mühüm diplomatik görüşlər ərəfəsində belə etmirlər, - xüsusən də o tərəfə qarşı ki, guya onu güzəştə məcbur etmək istəyirsən.

**Sadəcə, aydındır ki, Kremlin məqsədi Dağlıq Qarabağı Azərbaycana qaytarmaq və ya onu Ermənistana hədiyyə etmək deyil: Dağlıq Qarabağ "bölünə bilməyən alma" olub və elə gələcəkdə də bu funksiyanı yerinə yetirməlidir. Odur ki, danışıqların ənənəvi məcraya qayıtması üzücü və bir az da mənasız ümidlərdən başqa bir şey vəd etmir - təəssüf ki, bunu bir daha konstatasiya etmək zorundayıq...**

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019



# 50 ilin gözəl mahnıları və korlanmış zövqlər

**Samir SARI**

**Dünən insan zövqlərinin xəfif toqquşması olayının tam ortasında qalmışdım. Avtomobilimi elə yerdə saxlamışdım ki, bayırdakı çayxanadan gur musiqi səsi maşının içinə dolurdu. Avtomobilin audiopleyerində də musiqi səslənirdi.**

*Bayırdan gələn yanıqlı gənc kişi səsi belə deyirdi:*
*"Neçə vaxtdır üzünün həsrətindəyəm, gözəlim.*
*Çox uzaqlardasan, nə edim, sənə çatmır əlim.*
*Zalım ayrılıq bizi qoymadı yetək vüsala,*
*Səni bilmirəm, məni yaman salıbdır pis hala".*

Sonrakı kupletləri burda yazmağa hacət yoxdur, amma mahnının nəqarəti heç yaddan çıxmaz:

*"Qulaq as indi mənə, çəkdiyimi al nəzərə,*
*Dəstəyi qoyma yerə, qoyma yerə".*

Avtomobilin pleyerində isə Flora Kərimovanın "Eşqimə şahid zaman" mahnısı oxunurdu:

*"Təzə açmış bir qönçə tək, zərif ətrinə heyran.*
*Hamı deyir, gözəl mələk, yaranmısan mehriban.*
*Sevdim səni ilk baharda, eşqimə şahid zaman".*

Bax, bu mahnıların sədaları bir-birinə qarışmışdı. Birinci mahnı 3-4 ildir çıxıb və hitə çevrilib, nə qədər ömür edəcəyi bəlli deyil, ikinci mahnı isə 40-50 il əvvəl yazılıb (sözləri BDU-nun sabiq rektoru Faiq Bağırzadəyə, musiqisi böyük bəstəkarımız Oqtay Kazımiyə aiddir, mahnının ilk və ən gözəl ifaçısı (mənə görə) isə Flora Kərimovadır).

Sonra da deyirlər ki, zövqlər və rənglər dartışılmaz. Necə dartışılmaz, əziz həmvətənlər? Sən qara boyanı günəşli gündə meşə əhatəsindəki dəniz rənginin başı üstündən daha ürəkaçan, təmizlik, məsumluq rəngi kimi xalqa necə sırıya bilərsən?

Elə deyil. İndiki yaşlı nəsil gözəl musiqilər dinləyə-dinləyə böyüyüb. Adamlar gözünü açıb, radiodan Qədir Rüstəmovun "Sona bülbülləri"ni, Şövkət Ələkbərovanın "Dərələr"ini, Rəşid Behbudovun "Alagöz"ünü, Niyaməddin Musayevin "Deyim, hardadır"ını, Alla Puqaçovanın "Milyon alıx roz"unu, Ququşun "Man amadem"ını, Zeynəb Xanlarovanın "Cavanlığım"ını, Vaxtanq Kikabidzünin "Çitto, qritto"sunu, Demis Russosun "Qud bay, may ləv"ini, Co Dasenin "Salyut"unu, Al Banonun "Feliçita"sını, Şenayın "Sev, kardeşim"ini, "Qaya" qrupunun "Ömür keçdi, gün keçdi"sini, "Yalla"nın "Üçkudu"sunu, Vısotskinin, Leontyevin, Sofiya Rotarunun, Radmilla Karaklaiçin, Nilufərin, Ferdi Tayfurun gözəl-gözəl mahnılarını, Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Marikoninin melodiyalarını dinləyib.

Ona görə də biri götürüb işgəncə görmüş adam səsi ilə "dəstəyi qoyma yerə, qoyma yerə" deyə zarıyanda və bu mahnı hitə çevriləndə hiss edirsən ki, onu sevənlər yuxarıda adını çəkdiyim və çəkə bilmədiyim yüzlərcə gözəl musiqi parçalarından xəbərsizdirlər.

Bəzən deyirlər ki, hər dövrün öz musiqisi var. Elədir. Şair də deyirdi, "hər aşiqin dövranı var". Amma elə gözəl musiqi əsərləri var ki, yüz illər keçir, hələ də ifa edilir və sevilir. Məsələn, "Eşqimə şahid zaman" mahnısı 2119-cu ilin bu vaxtları da oxunacaq. Necə ki, Üzeyir bəyin 114 il öncə yazdığı melodiyalar hələ də ifa edilir, hətta artıq toylara da ayaq açıb. "Könlüm qəmi neylər" budur, 40 ilə yaxındır hər toyda azı 3-4 dəfə çalınır. (Hərçənd yeni çıxdığı vaxtlarda mühafizəkar musiqi ictimaiyyəti Ağadadaşı da möhkəm tənqid edirdi, amma "60 min ördək-qaz" söhbətinə görə).

Bu günlərdə buxaralı yəhudilər ABŞ senatında ziyafət verirmişlər, ölkəmizin səfiri Elin Süleymanov da məclisdəymiş. Qəfildən yəhudi müğənni götürüb Tofiq Quliyevin "Yalqızam, yalqız" mahnısını ana dilimizdə oxuyub. Müğənni çıxışını bitirəndən sonra səfirimiz ona yaxınlaşıb, qucaqlayıb və minnətdarlığını bildirib. Sıradan olay deyil. Mədəniyyətimiz, incəsənətimiz adına yaxşı hadisədir. Çünki Tofiq Quliyevin o mahnısı üzağardan mahnıdır, səviyyəlidir. Onun yerinə müğənni "Ay, balam, gül balam, hər bir şey yaxşı olar" mahnısını oxusaydı, yəqin ki, səfir yerindən tərpənməzdi.

Özümdən götürürəm, iki il öncə Kobuletidə qaldığım otelin yaxınlığındakı disko-klubda bu mahnını ard-arda səsləndirirdilər və mən qürur duymurdum, xəcalət çəkirdim ki, belə gözəl melodiyaya çox düşük sözlər yazılıb. Bircə təsəllim vardı ki, gürcülər, acarlar, başqa millətlər o mahnının sözlərini anlamırlar. Düzünə qalsa, mənim də anladığım eləcə "hər bir şey yaxşı olar" idi.

**Bəli, yalnız korlanmamış zövqlər mübahisə predmeti ola bilməz. Ritmik mərsiyələrdən, yeniyetmə yanıqlığını əks etdirən zarımalardan alınan zövq isə içinə zibil qoyulmuş zövqdür.**

# Müsavat Partiyasında növbəti saxta vəsiqə qalmaqalı

## Səxavət Soltanlı status yazdı, Yadigar Sadıqlı cavab verdi, qalmaqal düşdü...

**Son günlər Müsavat Partiyasında saxta vəsiqə qalmaqalı böyüyür. Bunun yaranma səbəblərindən biri partiya funksioneri Səxavət Soltanlının paylaşdığı status olub. "Yeni Müsavat" sözügedən statusu təqdim edir: "Əziz dostlar, hakimiyyətin tapşırığı ilə Müsavat Partiyasına qarşı "saxta sənəd satma" ittihamı ilə yeni bir kampaniya başladılıb. Bəziləri səmimi, bəziləri də məkrli məqsədlə bu "ittihamlara" cavab verməyimizi istəyirlər. Əzizlərim, ortada münasibət bildiriləsi bir dənə də olsa ciddi fakt olmadığı halda nəyə cavab verək?**

Şəxsən sən oxucu, öldürmədiyin şəxsi harada basdırdığını deyə bilərsənmi? Bəli Müsavat Partiyasının, rəhbərlərinin adından saxta sənəd düzəldənlər var, biz onların kimlər tərəfindən verilməsinin müəyyənləşməsində ən çox maraqlıyıq. Hüquq-mühafizə orqanlarına müraciət edirik ki, tapın bu cinayətkarları!

Hər zaman belə müzakirələrdə "Ortaya fakt qoyun" deyirik.

Elə "faktlar" qoyurlar ki, adam müzakirəyə çıxarmağa, adı hallanan şəxsə "sizin adınızdan istifadə etməklə saxta sənəd düzəldiblər" deyə müraciət etməyə də ehtiyac duymur. Saxta sənəd haqqında fakt istəyirsən, götürüb ortaya saxta fakt qoyurlar.

İndi sizin diqqətinizə belə bir saxta sənədi təqdim edəcəm.

Guya Yadigar Sadıqlıya məxsus olduğu deyilən, Yadigar bəyin hansı təşkilatın sədri olduğunu bilməyən biriləri tərəfindən primitiv formada onun adından istifadə etməklə saxta sənəd düzəldir.

Kimsə Müsavat adından saxta sənəd düzəldirsə, buna görə Müsavat Partiyası və ya adından saxta sənədə saxta imza atan Yadigar Sadıqlı günahkarmı olur, "arayış alverçisi"mi olur? Yadigar Sadıqlının ümumiyyətlə Salyana aidiyyəti yoxdur, o, Lənkəran təşkilatının sədri olub, Lənkaranda doğulub, orda işləyib, indi də orda yaşayır.

Üzünə baxan kimi bu sənədin də saxta olduğu, Müsavat Partiyasına aidiyyəti olmadığı, Yadigar Sadıqlının da bundan xəbəri olmadığı aşkar görünür.

*Belə saxtakarlara, işbazlara görə Müsavat Partiyası kimi ləyaqətlə mübarizə aparan partiyanın adını hallandırmaq olarmı?*

*Bu "fakt"lara görə bizdən cavab vermək tələb edilə bilərmi?*

Və ən sonda, kimsə bizim tərəfimizdən, Müsavat Partiyası tərəfindən hansısa bir sənədi pul müqabilində (qədər önəmli deyil) kiməsə verməsi ilə bağlı ortaya ciddi bir fakt qoysa, hamınızdan üzr istəyəcək, Müsavat başqanının müavini vəzifəsindən və seçkili orqan olan partiyanın Divanından da istefa verəcəyimi bəyan edirəm!

Fakt qoyun ortaya, daha belə saxta fakt yox".

Bu status Müsavat Partiyası daxilində, eləcə də sosial şəbəkədə ciddi müzakirələrə, qovğaya səbəb olub. İlkin reaksiyalardan birini elə partiyanın divan üzvü Yadigar Sadıqlı bildirib. Onun mövzu ilə bağlı yazdıqlarını təqdim edirik: "Dünən mənim iştirak etmədiyim Divan iclasında məlum olub ki, partiya rəhbərliyinin əlində belə bir sənəd var. Mənim Salyan (!) təşkilatının sədri kimi göstərildiyim, guya imzaladığım saxta xasiyyətnamə. Və aylardır bu sənəd partiya rəhbərliyində ola-ola mənə heç bir məlumat verilməyib. Elman Fəttahın bununla bağlı iradına da düz-əməlli cavab səslənməyib. Gecə saatlarında isə Müsavat üzvlərinin qapalı qrupunda gələcək qurultayda başqanlığa namizəd olacağımı açıqladıqdan sonra başqan müavini Səxavət Soltanlı yenə mənə demədən, adım keçən sənədi yenə də mənimlə məsləhətləşmədən paylaşıb. Zatən məsləhətləşsəydi, etiraz etməyəcəkdim. Şükür, cəmiyyətdə qazandığımız imic var, belə şeylər bizə yapışmaz. Amma yenə də etika, yoldaşlıq xəbər verməyi tələb edirdi.

Beləcə, bütün söz-söhbətlərdən sonra partiya rəhbərliyi bir saxta sənəd tapıb, o da mənim adım keçən. Bu sənədin haradan gəlməsini bilmək mənim hüququmdur. Həmin sənədlə sosial şəbəkədə tanış olduğuma görə, elə burada da Səxavət Soltanlıdan sənədin mənbəyi haqqında məlumat istəyiəm.Kim göndərib və nə vaxt göndərib. Və cavabın şifahi deyil, skrinşotla verilməsini tələb edirəm".

**Müzakirələr zamanı Y.Sadıqlı ona sual ünvanlayan bəzi partiyadaşlarına cavab olaraq deyib:** "Mənim adım keçən və guya aylarla əllərində olan sənəd barədə mənə heç bir məlumat verilməməsini, qəfildən sosial şəbəkədə paylaşılmasını izah edə bilərsiniz?" O, bununla da bu paylaşımın səmimi məqsədlərdən xəbər vermədiyinə işarə vurub.

**Partiya başqanının müavini Tofiq Yaqublu** isə müzakirələrdə bildirib ki, "bu saxta sənəd ələ keçən kimi Yadıgar bəyə dərhal məlumat verilməliydi".

**S.Soltanlı isə yaranmış fikir ayrılıqlarına belə münasibət bildirib:** "İsterikanı anlamadım. Müsavata qarşı iflasa uğrayan şər kampaniyasını yenidən dirçəltmək cəhdinə cavab olaraq yazmışam ki, belə saxta sənədlər müxtəlif Müsavat yetkililərinin o cümlədən Yadigar Sadıqlının da adından düzəldilir, və saxta olması qəti şübhə doğurmayan bir nümunəni paylaşmışam. Burada sizi narahat edən nədir?

Eyni zamanda işbazların Yadigar Sadıqlının adından hazırladığı, guya Müsavat Partiyasına aid olan saxta sənədi ictimailəşdirməyimin Yadigar Sadıqlının başqanlığa namizəd olacağını elan etməsi ilə əlaqələndirmək riyakarlıqdır. Əvvəla, bu saxta sənəd Yadigar Sadıqlıya qarşı kompromat deyil. İkincisi, Yadigar Sadıqlı mən bu saxta sənəd haqqında Divan üzvlərinə (13 nəfərin iştirak etdiyi iclasda) məlumat verdikdən, bəzi Divan üzvlərinə və Elman Fəttaha bu saxta sənədi göstərdikdən, onun vasitəsi ilə bu haqda məlumat Yadigar Sadıqlıya çatdırıldıqdan sonra o qurultayda başqanlığa namizəd olacağını elan edib".

**S.Soltanlı eyni zamanda bildirib ki, "Adam nə qədər savadsız və utanmaz olmalıdır ki, iddia eləsin ki, hansısa təşkilat öz üzvünə "saxta vəsiqə", "saxta arayış" nə bilim saxta nəsə versin?". O, bu fikirlərini möhkəmləndirmək üçün aşağıdakıları qeyd edib:** "Verirsə, elə həqiqi vəsiqə, həqiqi arayış verər də. Ay savadsız və bizə qarşı istifadə olunanlar, hansısa təşkilatın adından saxta sənəd varsa, bu o deməkdir ki, bu sənəd hansısa başqa fırıldaqçılar tərəfindən hazırlanıb. Bəli, Müsavat Partiyasının sənədlərinə oxşar sənəd düzəldənlər var və biz də bu saxtakarların tapılmasında, cəzalanmasında maraqlıyıq.

*Əlində partiyanın möhürü, blankı olan bir şəxs niyə saxta sənəd versin? Niyə boş yerə oksigen israf edirsiz? 50, 100, 1000, 10000 min manat qarşılığında şəxsiyyətini, əqidəsini, əqidədaşlarını satanlar bizlərin düşünmədən nələrdən imtina etdiklərimizi heç düşünə bilirlərmi?*


Yadigar Sadıqlı


MÜSAVAT
AZƏRBAYCAN RESPUBLİKASI MÜSAVAT PARTİYASI
SALYAN RAYON TƏŞKİLATI

XASİYYƏTNAMƏ

...rilir: 09.12.1981-ci il təvəllüdlü Salyan Rayon Arbatan kəndində yaşayan Nəsirov ...dim Kamil oğluna ondan ötrü ki, Nəsirov Vadim Kamil oğlu2009-cu ildən Müsavat ...tiyasına daxil olmuş, daim nizam-intizamlı, ölkə vətəndaşları ilə, Partiya yoldaşları ...səmimi-mehriban davranmışdır.
...sirov Vadim Kamil oğlunda cəmləşən vətənpərvərlik, demokratik və Azadlıq hiss... ...onu digərlərindən fərqləndirən əsas cəhətlərindəndir. Daimə ölkə İqtidarı tərəfində... ...vətəndaşlarına qarşı yönələn Represyalara, siyasi və irqi-etnik ayri seçkiliyə tez ... ...verən, haqsızlıqlara və doğru sözü boğanlara qarşı açıq şəkildə qorxmazcasın... ...rizə aparan Partiyamızın gənc olaraq fəxri üzvüdür.
...sirov Vadim Kamil oğlunda istər insani, istər dünyəvi və istərsədə demokratik, ...ğın sevən və Mübarizlik xasiyyətləri cəmləşmişdir.
...siyyətnamə Almaniya Federativ Respublikasının və Digər Avropa Respublikaları... ...üvafiq orqanlarına təqdim etmək üçündür.

Müsavat Partiyası Salyan Rayon Təşkilatının sədri — Yadigar Sadıqlı

Bələdiyyə, parlament seçkilərində Müsavat Partiyasının siyahısı ilə seçkilərdə iştirak etməməyə görə şəxsən mənə təklif edilən pulun və başqa maddi şeylərin qarşısında bizə şər atanlar çox şeylərin satardılar.

Biz həmin təklif göndərənlərə düşünmədən layiq olduqları formada cavab vermişik.

Bir imza vərəqinə görə mən də daxil olmaqla namizədlərimizə təklif edilənlərdən xəbəriniz olsa da sizdə utanan sifət görmürəm.

Biri bizə Müsavatın sənədinə oxşar saxta sənəd göstərir, araşdırmasız görünür ki, saxta sənəddir, deyir "fakt demirdiz, bu da fakt".

Bu adamlara ona görə vaxt ayırıram ki, cavab verilməyəndə, həqiqətlər deyilməyəndə ən absurd yalan da ayaq tutub yeriyir.

Bundan əvvəlki kampaniyaları kimi bu da suya düşüb".

"Yeni Müsavat" mövzu ilə bağlı tərəflərlə danışmağa cəhd göstərsə də, buna nail olmayıb. Y.Sadıqlı bu barədə mediaya açıqlama verməyəcəyini bildirib. Tərəflərin mövqeyini işıqlandırmağa hazırıq.

**Qeyd edək ki, ötən illərdə də Müsavat Partiyasına qarşı saxta vəsiqə ittihamları olub.**

**❑ SEVİNC, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 35 (7205 14 fevral 2019

# Rəsmi İrəvan danışıqları "ölü nöqtə"yə qaytarmaq istəyir

## Ekspert: "Qarabağ müharibəsi qaçılmazdır, Azərbaycan hazırlaşmalıdır"

**Ermənistanın baş naziri Nikol Paşinyan son zamanlar Qarabağla bağlı bəyanatlarının "barıt"ını çox eləməsi diqqət çəkir.**

**Nikol Paşinyan özü Düşənbədə Azərbaycan prezidenti İlham Əliyevlə görüşündən sonrakı aylarda Qarabağ cəbhəsində sakitliyin hökm sürməsinə görə məmnunluğunu dəfələrlə ifadə edib.** Erməni baş nazir Qarabağ hadisələri başlayandan bəri ilk dəfədir cəbhə xəttində və təmas xətti boyunca atəşkəsin pozulması hallarının minimuma endiyini vurğulayıb. Məhz bundan sonra danışıqlarda dinamikanın yaranması, Parisdə XİN rəhbərləri səviyyəsində xalqların sülhə hazırlanması ilə bağlı anlaşmanın əldə olunması, ardınca Davos Forumu çərçivəsində liderlər arasında keçirilən görüş və nazirlərin Münhen goruşünə hazırlıqların başlaması müəyyən ümidlər yaradırdı. Ancaq N.Paşinyanın son davranışları əldə olunan razılaşmaları pozmaq niyyətindən xəbər verir. Görünür, baş nazir Robert Köçəryan və Serj Sərkisyanı neytrallaşdırmaq xətti yürütməsinə baxmayaraq, onların yanlış Qarabağ siyasətindən imtina etmək niyyətində deyil.

"Biz Qarabağ münaqişəsinin yalnız sülh yolu ilə həllini görürük, lakin bu o demək deyil ki, Ermənistan müharibəyə hazır olmamalıdır". Virtualaz.org "Aysor" nəşrinə istinadən xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib. "Məsələnin həlli üçün sülh atmosferinin bərqərar olması zəruridir. Bu gün regionda sülh atmosferi yoxdur", - parlament deputatlarının suallarını cavablandıran N.Paşinyan bildirib. Xalqların sülhə hazırlaşdırılması haqqında danışarkən N.Paşinyan qeyd edib: "Deyirlər xalqları sülhə hazırlaşdırın, xalqı yox. Buna müvafiq olaraq, əgər bir ölkədə hökumət xalqını sülhə hazırlaşdırmırsa, digər ölkənin hökuməti də öz xalqını sülhə hazırlaşdıra bilməz. Biz vəziyyətdən çıxış edərək hərəkət edəcəyik", - baş nazir N.Paşinyan bildirib.

**Paşinyan hələ də sülhün əldə olunması üçün torpaqların azadlığının birinci şərt olduğunu qəbul etmək istəmirsə, deməli, ABŞ Milli Kəşfiyyatının may-iyun ayları ilə bağlı müharibə xəbərdarlığına daha çox inanmaq lazım gələcək.** Çünki Bakı heç vaxt təslimçi sazişə imza atmaq niyyətində olmayıb və bundan sonra da bir addım belə, geri çəkilməyəcək, bu, dövlət başçısı səviyyəsində dəfələrlə bəyan olunub.

Qeyd edək ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri yaxın vaxtlarda iki ölkə lideri ilə görüşməyi planlaşdırdıqlarını bəyan etmişdilər. Lakin İrəvanın hazırkı mövqeyi danışıqları əhəmiyyətsiz edir. Ermənistan hətta girov saxladığı iki azərbaycanlını-Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasından ötrü şərt irəli sürür, buna görə rəsmi Bakını Dağlıq Qarabağdakı qondarma rejimlə danışıq aparmağa çağırır. Bu isə danışıqlara Xankəndidəki separatçıların "tərəf" kimi pərçim edilməsi cəhdindən başqa bir şey deyil. Ancaq Azərbaycan prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, danışıqların qəbul olunmuş formatının dəyişdirilməsi mümkünsüzdür, Bakı bunu qəbul etməyəcək.

**Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev** AzərTAc-a açıqlamasında İrəvanda səslənən bəyanatlara cavab verib. Ermənistan baş nazirinin mətbuat katibi Vladimir Karapetyanın iddiaları barədə danışan dövlət rəsmisi işğalçı ölkənin danışıqları pozmaq niyyətində olduğunu vurğulayıb. Sitat: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin intensiv və nəticəyönümlü danışıqlar yolu ilə həlli üçün Azərbaycanın beynəlxalq ictimaiyyətlə birlikdə atdığı konstruktiv addımlarına baxmayaraq, son dövrlərdə Ermənistan tərəfindən müxtəlif rəsmi səviyyələrdə verilən açıqlamalar heç bir halda danışıqlar prosesinin irəli aparılmasına xidmət etmir. Ermənistan baş nazirinin mətbuat katibinin və digər Ermənistan rəsmilərinin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinin danışıqlarda iştirakı barədə iddiaları danışıqlar prosesini iflic etmək cəhdlərindən başqa bir şey deyil". H.Hacıyev bildirib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının çağırışlarına baxmayaraq, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında belə



Nikol Paşinyan

dialoqun yaranmasına və sülh şəraitində gələcək birgəyaşayışın müzakirə edilməsinə imkan vermir: "Ona görə də ilkin və ən vacib addım kimi, BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinin tələblərinə uyğun olaraq Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Sülhün əleyhinə çıxış etmək və aqressiv ritorika ilə danışıqlar prosesini pozmaq əvəzinə, Ermənistan rəhbərliyi öz xalqını sülhə və qonşu dövlətlərlə mehriban münasibətlərə hazırlamalıdır". Bu, Paşinyan hökumətinin son ziddiyyətli açıqlamalarına növbəti cavab olmaqla yanaşı, həm də işğalçıya xəbərdarlıqdır.

**N.Paşinyanın ölkə daxilində ciddi etirazlarla üz-üzə qaldığı və çıxılmaz duruma düşdüyü də məlumdur.** Rusiyanın Ermənistana satdığı qazın qiymətini artırmasından sonra N.Paşinyan Qərbi qıcıqlandıran addıma getdi. Belə ki, Ermənistanın sülhməramlı (!) tağımı Suriyaya göndərildi, bu da ABŞ Dövlət Departamentinin sərt reaksiyasına səbəb oldu. Digər tərəfdən, "Qarabağ klanı" Paşinyana basqıları davam etdirir. Paşinyanın təzyiqlərinə baxmayaraq, klan geri çəkilmir. Bu arada Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan 2008-ci ilin 1 mart hadisələrinə görə istintaqda doğrudan da keçmiş prezident Serj Sərkisyanla üzləşdirilib. Amma onu istintaqa satmayıb. Hər halda, çox maraqlı gedişatdır, klan üzvləri bir-birini qoruyur, bu da Paşinyan üçün yaxşı heç nə vəd etmir. Üstəlik, parlamentdəki müzakirələrdə erməni deputatlar Paşinyanı Qarabağ güzəştinə hazırlıqda ittiham edirlər. Paşinyan bəyanatlarında radikallığı artırsa da, bu, onu xilas etmir, əksinə, o, müharibəyə aparacaq yol seçib.

Ermənişünas alim Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda hər hansı hakimiyyət dəyişikliyi Qarabağ siyasətində dəyişikliyə aparmır, sonuncu nümunə də bu gerçəyini ortaya qoydu: "İşğalçı dövlət nə danışıqlar prosesində, nə də gündəlik siyasətində heç bir güzəştə getməyəcək. İşğal olunmuş Azərbaycan ərazilərinin qaytarılması məsələsində də hər zaman manipulyasiya edib. Paşinyanın əvvəlki erməni liderlərindən heç bir fərqi olmayacaq. Əksinə bu adam daha təhlükəlidir. Daim özünü sülh danışıqlarına hazır kimi göstərəcək, amma Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması məsələsinə heç vaxt isti baxmayacaq". Q.Çaxmaqlının fikrincə, bəziləri ona Ter-Petrosyanın "torpaqların əvəzinə sülh" tezisinin davamçısı kimi baxsalar da, yanılırlar: "Paşinyan həm Qərbdən, həm də əbədi müttəfiqindən - Rusiyadan dəstək alaraq işğalın davam etdirilməsinə çalışacaq. Hətta müharibəyə gedilərsə, dediyimiz güclərin dəstəyi ilə işğalçılıqdan əl çəkməyəcək". Bəs, Paşinyanın son bəyanatlrı hansı mənanı verir: o, qorxusundan hay-küy salır, yoxsa arxasındakı güclərə arxayın olaraq Azərbaycanı təhdid edir: Q.Çaxmaqlı: "Hakimiyyətini möhkəmləndirmək üçün ona bu siyasi gedişlər həmişə lazım olacaq. Azərbaycanı təhdid etməsinin də arxasında həmin güclərə arxayınlıq hissi dayanır. Rusiya heç zaman Ermənistanı indiki halda Azərbaycanın ayağına verməyəcək. Digər həmsədr ölkələr də elə... Fransanın son zamanlar arbitr ölkə olmadığı bir daha sübut olundu. Amerika isə hələ ki, Cənubi Qafqazı Rusiyanın təsir dairəsindən çıxarmaq fikrində deyil". Bütün bunları nəzərə alan Q.Çaxmaqlı hesaab edir ki, Azərbaycan müharibəyə hazırlaşmalıdır: "Başqa yol yoxdur. Bu gün (dünən-E.P.) haqqın rəhmətinə qovuşan - məkanı cənnət olsun - Ozan Arif demişkən "Ya Qarabağ, ya ölüm, başqa yol yox artıq".

**Q.Çaxmaqlı həmişə səsləndirdiyi bir fikri yenidən təkrarladı:** "Qarabağ məsələsində müharibə qaçılmazdır, Dağlıq Qarabağın ətrafındakı torpaqlar qaytarılsa belə. Ermənilər bu torpaqları təbii ki, elə- belə qaytarmayacaqlar. Onun müqabilində artıq bizim bildiyimiz Dağlıq Qarabağın statusu məsələsini həll etmək gəlir. Bu isə burada bir plebisidin (referendum) keçirilməsini nəzərdə tutur. Bu isə əvvəlcədən nəticəsi bəlli olan bur tələdir. Biz hələ ki, o tələyə düşməmişik".

Xarici havadarlarından stimul alan Qarabağ separatçıları isə bu ilin yayında Qarabağda futbol çempionatı, 2020-ci ildə isə "prezident seçkiləri" keçməyə hazırlaşırlar. Bu faktlar separatçıların və Ermənistanın Azərbaycanın səbri ilə oynaması deməkdir. Separatçı rejimin hazırkı rəhbəri Bako Saakyanın "namizədliyini" verməyəcək. (Publika.az) Namizədlərdən biri hələ ki, qondarma DQR-in keçmiş "müdafiə naziri", I Qarabağ müharibəsində azərbaycanlılara qarşı törədilən soyqırımıların fəal iştirakçısı olmuş general-leytenant Samvel Babayan, digəri isə hazırkı "prezidentin məsləhətçisi" Araik Artünyandır. Lakin bu namizədlər uzun proseslərdən keçərək seçkilərdə iştirak etməlidir. Bundan başqa, Azərbaycanın işğal edilmiş ərazilərində siyasi xaos və qarşıdurma davam edir. Digər tərəfdən isə baş nazir Nikol Paşinyanla Dağlıq Qarabağ klanı arasında qarşıdurmalar davam edir.

**Yəqin ki, biz bundan sonra da uzun müddət ermənilərin "tamaşa"larını seyr etməklə kifayətlənməyəcəyik. Çünki Ermənistandan Qarabağa sayca dördüncü yol çəkilir. Bu yollar müharibədə onlara çox lazım olacaq. Həm də torpaqlarımızdan qaçıb cəhənnəm olmaq üçün...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019

# Qarabağ Komitəsində istefalar başladı

**İsgəndər Həmidov:** "Komitə hazırda hakimiyyətin göstərişlərini yerinə yetirir"
**Akif Nağı:** "Bu ittihamların heç bir əsası yoxdur və bir az da gülməlidir"


İsgəndər Həmidov


Akif Nağı

**Qarabağ Komitəsinin dünən keçirilən iclasında ciddi gərginliklər yaşanıb. Qurumun təsisçilərindən olan sabiq daxili işlər naziri, AMDP sədri İsgəndər Həmidov komitədən istefa verib. Onunla bərabər Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu da QK-nı tərk edib.**

İ.Həmidov təşəbbüsü ilə yaradılan Azərbaycan Xalq Hərəkatı daxilində Qarabağ Komitəsi tipli komitənin yaradılmasını daha məqsədəuyğun sayıb. Onun çıxışı birmənalı qarşılanmayıb. İstefasını açıqlayan sabiq nazir belə bir qurumu hərəkat daxilində yaradacaqlarını açıqlayaraq, iclası tərk edib.

GAP sədri A.Şakiroğlu çıxışında fevralın 16-da keçirmək istədikləri "Qarabağa azadlıq" mitinqinə icazə verilmədiyi üçün icazəsiz aksiya keçirməyi təklif edib. Onun təklifi keçməyib və bu səbəbdən GAP komitəni tərk edib.

İ.Həmidov və A.Şakiroğlu ilə bərabər 20-dən çox üzvün QK-nı tərk etdikləri bildirilir.

**Sabiq nazir istefası ilə bağlı "Yeni Müsavat"a danışarkən QK-nı hakimiyyətə yaxın olmaqda ittiham etdi:** "Bəyanat verməyəm. Orada bildirmişəm ki, Qarabağ Komitəsində möhtəkirlik gedir. Qarabağ kimi ülvi, vicdan söhbəti olan təşkilatda alver gedir. Komitə hazırda hakimiyyətin göstərişlərini yerinə yetirir. Bu səbəbdən sizin qəzetiniz vasitəsilə müraciət edirəm və Qarabağ sevərləri, Qarabağ uğrunda vuruşanlar və vuruşmağa hazır olanları Azərbaycan Xalq Hərəkatının Qarabağ Komitəsinə qoşulmağa dəvət edirəm. Komitədə kimlərin alver apardığını hər kəs yaxşı bilir. Biz Azərbaycan Xalq Hərəkatının nəzdində Qarabağ Komitəsini yaradacağıq. Gələn həftənin ilk günü komitə elan olunacaq və ondan iki sonra saat 12:00-da ilk iclasımızı keçirəcəyik. Heç kəsi seçim qarşısında qoymaq fikrimiz yoxdur. İstefamı verəndən sonra iclasdan çıxdım. Mənə gələn məlumatlara görə, 23 nəfər istefa verib. Onların sırasında İlham İsmayılın da olduğu deyildi. Bu istefaların gedişimlə heç bir əlaqəsi yoxdur. Sadəcə, insanların qəlbində üst-üstə yığılanlar birdən bürüzə verdi".

**Sabiq MTN polkovniki İlham İsmayıl QK-da üzv kimi qaldığını söylədi:** "Komitədə sıravi üzv kimi qalıram. Müəyyən fikir ayrılıqları var və bu səbəbdən nəzərə aldım ki, öhdəlik götürən bəzi şəxslərlə bir yerdə olmağa ehtiyac yoxdur. Elan olunacaq Qarabağ Komitəsində də təmsil olunmayacağam. Komitədə çox səmimi insanlar var. Sözün həqiqi mənasında bütün fəaliyyətlərini Qarabağ uğrunda mübarizəyə yönəldiblər. Amma orada kimlərinsə özlərini söz sahibi kimi aparmaları sonda fikir ayrılıqlarına gətirib çıxarır. Bu baxımdan da komitənin idarə heyətindən istefa vermək qərarına gəldim".

Bu istefaların ardından QK-nın iki hissəyə ayrıldığı yönündə fikirlər səslənməyə başlayıb. Hətta istefaların davam edəcəyi bildirilir. Baş verənlərin komitənin işinə də təsirsiz ötüşməyəcəyi qeyd olunur.

Onu da bildirək ki, QK-nın dünənki iclasında komitənin fevralın 16-da keçirəcəyi mitinqə Bakı Şəhər İcra Hakimiyyətinin icazə verməməsi də müzakirə olunub və yeni mitinq günü təyin edilib. Komitə gələn ayın 16-da mitinq keçirmək barədə qərar qəbul edib.

**QK-nın təsisçilərindən olan AĞ Partiya başqanı Tural Abbaslı istefalar barədə danışmaq istəmədi:** "Bir cümlə onu deyə bilərəm ki, Qarabağ Komitəsinə qoşulmaq və oradan ayrılmaq könüllü əsaslarladır. Kim istəsə qoşula və ayrıla bilər. Mən bu məsələnin xüsusi parçalanma və ya neqativ hal kimi hallandırılmasının əleyhinəyəm".

**QK-nın digər təsisçisi, Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bunları dedi:** "Onların istefasına təəssüf edirik, amma qərarlarına hörmətlə yanaşırıq. Komitənin parçalanmasından söhbət gedə bilməz. İşlərimiz davam etdiririk. Mitinqlə bağlı icazə verilməməsi pislənildi, növbəti mitinq üçün müraciət olunması qərara alındı. Növbəti mitinqin martın 16-da keçirilməsi nəzərdə tutulur. Qarabağ Komitəsinin yaranması bəzi dairələri əvvəldən narahat edirdi bu səbəbdən parçalamağa, zəiflətməyə çalışırdılar. Bilmirəm, bu istefalar onunla bağlıdır ya yox. İstefa verənlər dedilər ki, guya oyunlarda iştirak etmək istəmirlər QAT hakimiyyətlə bağlıdır və sair. Bu ittihamların heç bir əsası yoxdur və bir az da gülməlidir. Hakimiyyətlə birbaşa əlaqədə olan, hakimiyyətlə sövdələşməyə gedən, deputat yerləri alan partiyalarla bir yerdə olan bəzi şəxslərin bizi bu cür ittiham etməsi doğrudan da gülməlidir. AXH daxilində Qarabağ Komitəsinin yaradılması da normaldır. Bütün partiyalarda bu cür komitələr, komissiyalar var. Burda da olmağının heç bir ziyanı yoxdur. İstefalar həm gözlənilən, həm də gözlənilməz idi. Buna təbii bir proses kimi baxmaq gərəkdir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

---

**Vəzifəsini itirən məmurların xəstələnməsi, yatağa düşməsi Azərbaycanda tez-tez rast gəlinən haldı. İşdən çıxarılan nazirlərin, başqa yüksək rütbəli məmurların müalicə üçün xarici ölkələrə, ya da elə yerli xəstəxanalara müraciət etməsi halları geniş yayılıb. İlkin rəylər belədir ki, bu, bir çox hallarda psixoloji gərginliyin nəticəsidir. Gərginlik bir çox xəstəlik ocaqlarını tətikləyir və nəticədə uzun illər gərgin şəraitdə çalışan məmurun sağlamlığında daha öncə özünü göstərən problemlər birdən-birə partlayış kimi üzə çıxır. Bunun səbəbi nədir? Niyə vəzifəsini itirən məmurlar az sonra sağlamlıqlarını da itirir?**

# Vəzifəsini itirənlər sağlamlıqlarını da itirir - səbəblər

## Mütəxəssislər uzun illər vəzifədə olan şəxslərin işdən azad edildikdən sonra keçirdikləri sarsıntıların səbəblərini izah edir

Məsələn, 20 ilə yaxın Bakı Dövlət Universitetinin (BDU) rektoru postunu tutmuş **Abel Məhərrəmov** vəzifədən çıxarılandan 2 ay sonra xəstəxanaya aparılıb. Məlumata görə, Abel Məhərrəmov xəstəxanaya ürək çatışmazlığı diaqnozu ilə daxil olub. Hazırda sağlıq durumunda problem olmadığı deyilir.


Əhməd Qəşəmoğlu

Abel Məhərrəmovdan əvvəl isə uzun illər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri postunu tutmuş **Əli Həsənov**un səhhətində problem yaranıb. Respublika Müalicəvi Diaqnostika Mərkəzində müayinə zamanı Əli Həsənovun böyrəklərində, ödündə və digər orqanlarında problemlərin olduğu aşkarlanıb.

**Sabiq vergilər naziri Fazil Məmmədov** da hazırda xəstəxanadadır. O da bir çox xəstəlikdən əziyyət çəkir.

**Tanınmış sosioloq Əhməd Qəşəmoğlu** deyir ki, ümumilikdə hər kəs xəstələnə bilər: "Vəzifəni itirmək, vəzifədə olduğu müddətdə qazandıqlarının hamısını itirmək qorxusu, psixoloji sarsıntıya səbəb olur. Bir çox hallarda yaxın tanışlar adama salam vermir, əvvəlki hökm olmur. İnsan uzun müddət vərdiş etdiyi mühiti itirir. Psixologiyada geniş yayılıb ki, insanlar vəzifələrini tez-tez dəyişməlidirlər, çünki bir vəzifəyə vərdiş edəndə ətrafındakılara baxışı, özü haqda fikirləri fərqli olur. Bu məsələlər elmdə kifayət qədər işlənib".

**Əhməd Qəşəmoğlu deyir ki, bir insan böyük alimdirsə, vəzifədən çıxarılandan sonra gedir öz işi ilə məşğul olur:** "Əksərən belə insanların səhhətlərində vəzifədən çıxarılandan sonra ağırlaşma hiss edilmir".

**Tanınmış sosioloq özünün vəzifədən çıxarılmasını da xatırlayıb:** "O dövrdə Milli Məclis yanında "Humanitar Tədqiqatlar və Proqnozaşdırma Mərkəzi"nin rəhbəri idim. Oranı ləğv etdilər. O dövrdə qohumlarım, dostlarım dilxor olmuşdu ki, niyə belə oldu. Mən isə sevinirdim, heç vecimə də deyildi. Gedib elmlə, yaradıcılıqla məşğul oldum, kifayət qədər uğurlarım oldu. Bu gün də sevinirəm ki, o işdən canım qurtardı. Saleh Məmmədov maliyyə naziri vəzifəsində idi, çıxardılar. Onun heç vecinə olmadı, getdi yaradıcılıqla, elmlə məşğul oldu. Belə misallar da var. O insan ki, həyatının mənasını vəzifədə, vəzifəni əldə saxlamaqda, əldə etdiyi səlahiyyətlərdə, imkanda görür, onlar psixoloji olaraq barışa bilmirlər. Onlarda stress yaradır. Sovet dövründə Rəsul Rza kino naziri, Səməd Vurğun vəzifə sahibi olublar, amma işdən çıxarılanda heç bir sağlıq problemləri olmurdu. Çünki şair idilər, cəmiyyətdə tanınırdılar. Yəni bütün problemin kökü insanın öz həyatının mənasını nədə görməsində, nələrə üstünlük verməsində, hansı dəyərlərin onun üçün mühüm olmasındadır".

**Psixoloq Fərqanə Mehmanqızı** deyir ki, istər vəzifəli, istər vəzifəsi olmayan şəxs vərdişlərini dəyişirsə, həyat tərzini dəyişdiyi zaman müxtəlif stresslər yaşayır.

**Psixoloq vəzifədən çıxarılan şəxslərə mətbuatda yazılanların da təsirsiz ötüşmədiyi qənaətindədir:** "Media, ictimai rəy kimi istəsə rəzil də edə bilər, vəzir də. Təbii ki, vəzifədən çıxarılmış şəxslər barələrində nə danışılmasını, qəzetlərdə haqlarında nələrin yazılmasını diqqətlə izləyirlər. Belə şəxslər haqda neqativ danışılır, yazılır, ən pis ssenarilər qeyd olunur. Bu da həmin şəxslərin sağlığına təsirsiz ötüşmür, gizli qalan xəstəliklərinin də üzə çıxmasına yol aça bilir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

---

# "Exchange"lərin açılmasını ləngidən səbəblər

## Rəşad Həsənov: "Prosedurlar sadələşdirilsə də "Exchange"lərə maraq azalıb, çünki..."

**Xəbər verdiyimiz kimi, parlament Azərbaycanda "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi barədə" qanun layihəsini qəbul etdi. Dəyişiklik valyuta mübadiləsi fəaliyyətinə lisenziyaların verilməsi prosedurunun sadələşdirilməsini nəzərdə tutur.**




Xatırladaq ki, qanuna görə, maliyyə bazarlarına nəzarət orqanı valyuta mübadiləsi fəaliyyətinə lisenziya verərkən onu müvafiq icra hakimiyyəti razılaşdırmalı idi. Təklif olunan dəyişikliklə bu məsələ aradan qaldırılır. Bununla da Milli Məclis valyutadəyişmə obyektlərinin fəaliyyətinə "yaşıl işıq" yandırmış oldu.

Bu dəyişikliyi qiymətləndirən **iqtisadçı ekspert Rəşad Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda prosedurların mürəkkəb olması valyutadəyişmə məntəqələrinin yeni şərtlər daxilində fəaliyyətə başlaması üçün müəyyən çətinliklər yaradır: "Ancaq düşünmürəm ki, hazırda faktiki olaraq maliyyə bazarlarında "Exchange"lərin iştirak etməməsi və yeni təşəbbüslərin olmaması məhz bu kimi prosedurların çətinliyindən qaynaqlanır. Düzdür, prosedurlar müəyyən qədər prosesə təsir göstərsə də, burada əsas məsələ faktiki olaraq sektorda mənfəət normasının çox aşağı olmasından qaynaqlanır. Hazırda banklar çox kiçik marjalarla valyutadəyişmə əməliyyatlarını həyata keçirirlər. Burada çox az gəlir norması var".

**R.Həsənov onu da vurğuladı ki, "Exchange" açmaq üçün 50 min manat vəsaitin tələb olunması sahibkarların bu işə marağını azaldan əsas amildir:** "Yeni qaydalara görə, paytaxtda fəaliyyət göstərmək istəyən VDM-lər üçün 50 min manat həcmində depozitlərin yerləşdirilməsinə ehtiyac var. Bu kifayət qədər böyük vəsaitdir və indiki halda onu dövriyyədən kənarda saxlamaq hər hansı investorun, sahibkarın maraqlarına ziddir. Xüsusilə də marjanın bu qədər az olduğu şərtlər daxilində maraq azalıb. Həmçinin VDM-lərə qoyulan texniki tələblər çox yüksəkdir. Yeni qaydalarda xüsusi məkanların tələb olunması, mühafizə sisteminin daha etibarılə formada qorunması və sair əlavə xərc formalaşdırır".

**İqtisadçı onu da qeyd etdi ki, son 1 ildə qanunvericilik bazası formalaşıb və yeni VDM-lərin fəaliyyət başlaması üçün şərait yaradılıb:** "Ancaq təşəbbüslərin olmamasının əsas səbəblərindən biri şərtlərin ağır olmasıdır. Prosedurların sadələşdirilməsi müsbət addım olsa da, bununla yanaşı, digər məqamlar da gözdən keçirilməlidir. İstənilən halda ölkədə valyuta əlçatanlığı təmin olunmalıdır. Bu həm biznes mühiti, hə də turizm sektoru üçün xüsusilə əhəmiyyətlidir. Çünki son 3 ildə ölkəyə valyuta axınının təmin edilməsində əsas sektorlardan biri kimi turizm sektoru götürülür. Bəzi hallarda biz faktiki olaraq, müşahidə edirik ki, xarici turistlər valyutanın dəyişdirilməsi ilə bağlı ciddi çətinliklərlə üzləşirlər. Bu isə onların ümumi xərcləmələrinin həcminə təsir etməklə son nəticədə ölkəyə valyuta axınlarının gözlənildiyindən az olmasına səbəb olur. Bu baxımdan sözügedən şərtlər yumşaldılmalıdır. Uyğun investisiya mühiti formalaşdırılarsa, biz qeyd edilən istiqamətdə yeni təşəbbüslərin ortaya çıxmasına, yeni "Exchange"lərin yaranmasına səbəb olar. Beləliklə də bayram və şənbə-bazar günlərində, eləcə də qeyri-iş saatlarında valyutadəyişmə ilə bağlı problem aradan qaldırılmış olar".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019

**ABŞ-ın başçılıq etdiyi koalisiya qüvvələri Suriyada İŞİD-in nəzarətində olan son ərazidəki məscidə havadan hücuma keçib. Bu barədə "Amerikanın Səsi" məlumat yayıb. İŞİD əleyhinə Koalisiyanın bəyanatında bildirilir ki, kürdlərdən ibarət Suriya Demokratik Qüvvələri (SDQ) ABŞ ordusunun dəstəyi ilə İŞİD-in Bağuz məntəqəsindəki mövqelərinə yaxınlaşır.**

# ABŞ ordusu İŞİD-in Suriyadakı "son qalasını" mühasirəyə alıb

## İŞİD üzərində qələbə Tramp üçün nələri vəd edir?

"İŞİD-in məsciddən komanda və nəzarət obyekti kimi istifadə etməsi onun müdafiə statusunu itirməsinə səbəb olub" - deyə, koalisiya qüvvələrinin britaniyalı general-mayoru Kristifer Qika bildirib. ABŞ rəsmiləri İŞİD yaraqlılarının mühasirəyə alındığını bildirir. Yerli mənbələr isə İŞİD terrorçularının təslim olmaq istəmədiyini bildirib.

ABŞ-ın müdafiə və kəşfiyyat rəsmiləri Suriyada hələ də 1500-ə yaxın İŞİD yaraqlısının qaldığına inansa da, say daha çox ola bilər.

BBC isə xəbər verir ki, amerikalıların İŞİD-in son sığınacağına hazırladığı əməliyyat bölgədən böyük köçə səbəb olub. Son iki gündə bölgədən xeyli mülki insan qaçıb. Röyters isə qaçan əhalinin arasında əcnəbi İŞİD terrorçularının ailə üzvlərinin də olduğunu bildirir. Qaçanlar arasında iraqlılar, iraqlılar, türklər və ruslar var. Əməliyyata rəhbərlik edən kürd komandan Agentliyə bildirib ki, mühasirədə olan İŞİD-çilərin əksəriyyəti əcnəbilərdir.

Qeyd edək ki, son günlər İŞİD-in Suriyanın kürd bölgəsində olan sonuncu məntəqəsinə hücum hazırlanması ilə bağlı məlumatlar yayılır. Hətta iki həftə əvvəl İraqın "Əl-Arabi əl-Cədid" qəzeti yerli rəsmilərə istinadla İraq ərazisindən Suriyaya daxil olan xüsusi təyinatlı qüvvələrin "Suriya Demokratik Qüvvələri" ilə birlikdə Suriyanın Deyr əz-Zor vilayətinin Bağuz, Meraşde və Əlbukamal məntəqələri arasında 10 kilometrlik ərazidə Bağdadini mühasirəyə aldığını yazmışdı.


Donald Tramp

O da bildirilirdi ki, əməliyyatı 2011-ci ildə əl-Qaidə lideri Usamə bin Ladenin Pakistanın Abbotabat şəhərində xüsusi əməliyyatla məhv edən xüsusi təyinatlı qrupu həyata keçirir. ABŞ qüvvələri Bağdadini sağ olaraq ələ keçirməyə çalışdığı qeyd olunur. Bu səbəbdən də ərazidə hava bombardmanları keçirilmir. Yerli mənbələr isə İŞİD liderinin mühasirədə döyüşə hazırlaşdığını, hətta sağ ələ keçməmək üçün intihar edə biləcəyini bildirir. Hətta yanvarın sonlarında ABŞ ordusunun Suriyaya 600 hərbçi göndərdiyi haqda xəbər yayılıb. Hərbçilər ABŞ-ın Suriyadakı 18 hərbi bazasına yerləşəcək. Artıq amerikalıların Fəratın şərq sahilindəki bazaya çatdığı deyilir. Ehtimal ki, ələvə dəstək qüvvələri İŞİD əməliyyatı üçündür.

Hazırda İŞİD Suriya ərazisində bir neçə qəsəbəyə nəzarət edir. Ümumilikdə İŞİD-in nəzarətində olan bölgədə 20 min əhalinin yaşadığı ehtimal olunur. Bu səbəbdən də SDQ qüvvələri mülki əhalinin bölgəni tərk etməsi üçün əməliyyatı təxirə salınıb. Çünki hazırda İŞİD nəzarətində olan bölgə cəmisi bir neçə kv.km-dir, bu isə o deməkdir ki, əməliyyat olarsa xeyli dinc əhali ölə bilər.

**SDQ-nin sözçüsü Mustafa Bali** deyib ki, bu, İŞİD-ə qarşı son savaş olacaq. Hələlik bölgədən bəzi rəqəmlərə görə, 350, bir başqa mənbəyə görə isə 600 nəfər qaçıb. Frans-Press Agentliyi isə bölgədən qaçanlar arasında kişilərin, eləcə də rus və ukraynalı qadın və uşaqların, eləcə də suriyalıların olduğunu yazır.

Agentliyə açıqlama verən özünü "ümmi Xalid" olaraq təqdim edən qadın deyib ki, 5 il əvvəl Suriyaya gəldiyini və burada azərbaycanlı bir İŞİD-çi ilə evləndiyini, bu evlilikdən 2 övladının olduğunu deyib. Eyni zamanda əlavə edib ki, uşaqları indi yetim qalıb. O da bildirilir ki. bölgədən qaçan İŞİD üzvləri əvvəlcə kürd silahlıları və ABŞ hərbçiləri tərəfindən sorğu-sual olunur. Daha sonra isə onlar Suriyanın şimal-şərqində kürdlərin nəzarətində olan bölgədəki düşərgələrə göndərilir. İŞİD bölgəsindən qaçanların ac, yorğun olduğu, bəzi uşaqların ayaqyalın olduğu bildirilir.

Ehtimal olunur ki, mühasirədə 400-600 nəfər arasında İŞİD üzvü var. Kürd komandirlərindən biri deyib ki, mühasirədə qalan İŞİD-çilərin çoxu türk, avropalı və iraqlıdır. Bölgədən qaçan Hala Hassan adlı 29 yaşlı qadın ağır bombardmanların olduğunu və mühasirədə hər millətdən İŞİD üzvünün olduğunu, aclıqdan əziyyət çəkdiklərini, hətta otları yediklərini deyib.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp bu günlərdə bəyan etmişdi ki, yaxın zamanda Suriya ərazisi 100 faiz "İslam dövləti" qrupundan təmizlənəcək. D.Tramp xatırladıb ki, son iki ildə İŞİD-in ərazilərinin tamamən təmizlənib və yaxın həftələrdə qələbə elan olunacaq.

ABŞ prezidenti ötən ilin 19 dekabrında ordunun Suriyadan çıxarılacağını elan edib. ancaq ABŞ ordusu Suriyadan tədricən, 3 ay və daha uzun müddətə çıxarıla bilər. İŞİD-ə qarşı əməliyyatlar isə davam edəcək. Tənqidçilər isə bildirir ki, Suriyada ABŞ qoşunlarının çıxarılmasından sonra yaranacaq boşluqda İŞİD və Əl-Qaidə qüvvələri yenidən baş qaldıra bilər. Bu qüvvələrin müəyyən elementləri İraqda da qalır.

ABŞ hökumətinin İŞİD-i bitirmək üçün hərəkətlənməsi bir sıra səbəblərlə izah olunur. Bu səbəblərdən biri də ABŞ ordusunun Suriyadan çıxarılması barədə qərardır. Çünki Trampın ordunu Suriyadan çıxarması qərarı Vaşinqtonda tənqidlə qarşılanıb. Lakin əgər ABŞ ordusu qoyulmuş tapşırığa əsasən Bağdadini və İŞİD-in sonuncu məntəqəsini ələ keçirsə, o zaman Tramp tənqidlərdən qaça, hətta təqdir toplaya bilər. Yeri gəlmişkən, 2011-ci ildə ABŞ ordusu əl-Qaidə liderini Pakistanda öldürdükdən sonra o zamankı ABŞ prezidenti ordunu Əfqanıstandan çıxarılması. Yəni böyük terror müharibəsinin başa çatdığını elan etdi.

**Bundan başqa İŞİD-in tamamilə məğlub edilməsi və Bağdadinin ələ keçirilməsi ABŞ prezidenti daxil ictimai rəydə nüfuzunun yüksəldə bilər. Bu cür uğurlu əməliyyatlar gələn il keçiriləcək prezident seçkiləri öncəsi Tramp üçün yaxşı təbliğat ola bilər. 2011-ci ildə məhz seçkilərdən bir il əvvəl ABŞ ordusunun Bin Ladeni öldürməsi Obama üçün ciddi siyasi divident olmuşdu. Bağdadi ələ keçirilsə və İŞİD-ə son qoyularsa Tramp ciddi reytinq qazana bilər. Çünki çox deyil, 5 il əvvəl İŞİD İraq və Suriyada Britaniyadan böyük əraziyə nəzarət edirdi və faktiki 8 milyon yaxın insanın yaşadığı dövlət qurmuşdu.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Putinin Yanukoviçə ümidi qalmayıb - ekspert səbəbdən danışdı

## Kremlin sabiq prezidenti dövlət mühafizəsi ilə təmin etməsi Ukrayna seçkilərinə hesablanıb?

**Xəbər verildiyi kimi, Kreml 2014-cü ilin yazında ölkədən qaçaraq Rusiyada yaşayan sabiq Ukrayna prezidenti Viktor Yanukoviçi dövlət mühafizəsi ilə təmin edib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun sözlərinə görə, ukraynalı siyasətçi Vladimir Putinin şəxsi göstərişi ilə mühafizə olunur.**

Məlumdur ki, Kiyevin Obolon Rayon Məhkəməsi Yanukoviçə qarşı hökm çıxarıb. Məhkəmə onun dövlətə xəyanət və Rusiyanın Krımı ilhaq etməsinə yardım etməkdə təqsirli tanıyıb. Yanukoviç qiyabi olaraq, 13 il müddətinə azadlıqdan məhrum edilib. Yanukoviç 2014-cü ildə Kiyevdə prezidenti Avropa İttifaqı ilə birləşmə razılığına əməl etməyə çağıran etirazçılara qarşı ölümcül təqiblərdən sonra gərginliyin artması nəticəsində Ukraynadan qaçıb.

Vaxtilə Rusiya Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibova da uzun illər sığınacaq verib, onu mühafizə edib. Venesuelanın hazırkı prezidenti Nikolas Maduro da Moskvadan sığınacaq istəyəcəyini bildirmişdi.

2005-ci ilin martında isə davamlı etiraz aksiyalarından sonra Qırğızıstan prezidenti Əskər Akayev ölkəni tərk edib Rusiyaya sığınmışdı və o zaman müxalifətin lideri olan Kurmanbek Bakiyev hakimiyyətə gəlmişdi. Habelə, Suriyanın prezidenti Bəşər Əsədin devriləcəyi halda Moskvaya sığınacağı barədə məlumatlar dolaşırdı.


Viktor Yanukoviç

Ümumiyyətlə, zaman-zaman Rusiya onun orbitindəki siyasətçilərə sığınacaq verib, mühafizə edib, onları tələb edən ölkələrinin hakimiyyətlərinə təhvil verməyib. Amma Yanukoviç dövlət mühafizəsi ilə təmin olunur və bu proses Ukraynada prezident seçkiləri ərəfəsinə təsadüf edir. Kremlin sabiq prezidenti çətiri altına alması Ukraynadakı seçkilərə təsir etməyəmi hesablanıbmı?

**Siyasi şərhçi Elxan Şahinoğlu**nun "Yeni Müsavat"a dediyinə görə, Yanukoviç Moskvada yox, Rostovda yaşayır: "Putinin Yanukoviçə ümidi qalmayıb. Onu yenidən hakimiyyətə gətirə bilməyəcəklər. Əksinə, onu qınayırlar ki, niyə bu qədər güzəştə getdin və müxalifət hakimiyyəti ələ keçirdi. Moskvadakı adamları da ondan üz döndəriblər. Sadəcə, Rusiya Yanukoviçi taleyin ümidinə buraxa bilməz".

**Politoloq xatırladır ki, vaxtilə kommunist rejimlər devriləndə Moskva onlara qucaq açıb:** "1970-ci illərdə Çili Kommunist Partiyası sədri Luis Karvolana SSRİ gəlməyə şərait yaratmışdı. Ona görə Yanukoviçə dövlət mühafizəsinin ayrılmasının Ukraynadakı seçkilər ərəfəsinə təsadüf eləməsində onunla bağlı hansısa planların olduğunu düşünmürəm".

**E.Şahinoğlu hesab edir ki, bundan sonra Ukraynada ruspərəst siyasət yürütmək çətin olacaq:** "Hazırda prezidentliyə namizədlərdən Boykonun ikinci tura keçəcəyinə inanmıram. Timoşenko, Poroşenko, Tyaqnibok və Qritsenko arasında mübarizə gedəcək və onlar Qərbə yönəlik siyasət yürüdürlər. Krım və Donbas Ukraynadan qopandan sonra ruspərəst siyasət yürütmək qeyri-mümkün olub. Bəzi şəhərlərdə - Odessa, Xarkovda müəyyən ruspərəstlər var, amma təsir dairələri azdır. Fikrimcə, Rusiya martdakı prezident seçkilərinə yox, oktyabrda keçiriləcək parlament seçkisinə hazırlaşa bilər. Kreml Ukrayna radasında özünə yer eləməyə çalışacaq".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 35 (7205) 14 fevral 2019



## Azərbaycandan 5 milyard çıxaran şəxslərin cinayəti

### Pullar kimindir və onlar niyə susur?

**Ölkədən milyardlar çıxarmaqda ittiham edilən şəxslərin məhkəməsi davam etdirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda pulu leqallaşdırmada təqsirləndirilən Malik Əliyev və Rüfət Vəliyevin cinayət işi üzrə məhkəmə iclası keçirilib.

Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs Malik Əliyev ifadə verib.

Malik Əliyev 2013-cü ilə qədər "Röyalbank"da işlədiyini deyib.

Təqsirləndirilən Əliyev də bu işdə ifadəsində Əlican adlı Türkiyə vətəndaşının adını çəkib: "Rüfəti tanıyırdım. Mənə dedi ki, türkiyəli bir iş adamının yanında işləyir. Mal gətirir, dövriyyəsi böyükdür. Bildirdi ki, pul köçürmə əməliyyatlarında problemlər olur. Məndən işləməyi təklif elədi. Həmin ərəfədə işsiz olduğum üçün razılaşdım. Bank işlərini bildiyim üçün bu işi qəbul elədim. İlk maaşım 300 dollar idi. Sonra isə 1400 manat almağa başladım. Bizə "Azəriqaz Bankın" "Xətai" filialında ofis verildi. Əməliyyatlar, pul köçürmələr orada həyata keçirilirdi. Mən müqavilələrin düzgün olub-olmadığını yoxlayırdım. İş çox olduğu üçün Vidadi, Ülkər və Arzunu da işə dəvət etdim. Onlar mənim əvvəlki iş yoldaşlarım idi"- deyən müttəhim özünü təqsirli bilməyib.

O, deyib ki, heç bir şirkəti olmayıb və bu işdə sadəcə ötürücü rolunu oynayıb.

Malik Əliyev "Royalbank"ın 10 saylı filialının direktor müavini işləyib. M.Əliyev eyni cinayət əməlinə görə, 2017-ci ildə 10 il müddətinə azadlıqdan məhrum edilib.

Bildirək ki, ittihama əsasən, "Royalbank"ın 10 saylı filialının keçmiş direktor müavini Malik Əliyev 2012-ci ilin əvvəlində Rüfət Vəliyevlə görüşüb.

Ona cinayət yolu ilə əldə olunmuş pulların leqallaşdırılmasını təklif edib. M.Əliyev onu "AGbank"ın İdarə Heyətinin sədri Azər Mövsümovla görüşdürüb.

Rüfət Vəliyev özünü "Provision Group", "İmpeks+", "Blast", "Qalaksi A", "Asin Co. LTD", "Primo A" və "İTEK" MMC-lərin direktoru kimi təqdim edib və guya xarici iqtisadi ticarət fəaliyyəti göstərəcəklərini, külli miqdarda dövriyyələri olacağını bildirib. Bunun üçün də bankın filiallarının birində onlara otaq ayrılmasını istəyib.

A.Mövsümov onlar üçün "AGbank"ın Xətai filialında otaq ayırıb. M.Əliyev "Royalbank"da işlədiyi vaxtdan bəri tanıdığı Vidadi Əliyev, Ülkər Nəbiyeva və Arzu Əsgərovanı da işə cəlb edib.

İttihamda qeyd edilir ki, R.Vəliyev və istintaqa məlum olmayan şəxslərin gətirdiyi cinayət yolu ilə əldə edilmiş külli miqdarda pulları V.Əliyev sayıb, onların saxta olub-olmadığını yoxlayıb. Daha sonra həmin pullar adları qeyd olunan şirkətlərin hesablarına köçürülüb.

Sonra da xarici ölkələrin banklarındakı hesablara köçürülüb. Ü.Nəbiyev və A.Əsgərova R.Vəliyevin tapşırığı ilə xarici bankların hesablaşma nömrələri və köçürüləcək məbləği kompüter vasitəsilə yazaraq çap edib M.Əliyevə təqdim ediblər. R.Vəliyev isə həmin sənədləri şirkətlərin möhürü ilə təsdiqləyib, imzaladıqdan sonra icra olunması üçün M.Əliyev və V.Əliyevə təqdim edib.

Rəsmi ittihama görə, M.Əliyev "Privion Group" MMC vasitəsilə 2014-cü ilin fevral ayından 2015-ci ilin oktyabr ayına kimi 839 milyon manat, "İmpeks+" MMC vasitəsilə 2013-cü ilin noyabr ayından 2015-ci ilin oktyabr ayına kimi 778 milyon manat, "Blast" MMC vasitəsilə həmin müddət ərzində 510 milyon manat, "Qalaksi A" MMC vasitəsilə 115 milyon manat, "Asin Co. LTD" vasitəsilə 79 milyon manat, "Primo A" MMC vasitəsilə 213,5 milyon manat, "İTEK" MMC vasitəsilə 129 milyon manat pulu müxtəlif xarici valyutalara konveriya edərək xarici ölkələrdə yaradılan şirkətlərin bank hesablarına köçürüb.

Ümumi məbləğ 5 milyard 500 milyon manatdır.

**Qeyd edilən məbləğin təqsirləndirilən şəxsə aid olmadığı aydındır. Lakin məhkəmədə dəfələrlə sual verilsə də onlar kimlərin pulunu ölkədən çıxardıqlarını etiraf etməyiblər.**

❑ **İlkin MURADOV,
Musavat.com**

# Qaşıqçı məsələsi Tramp və Netanyahunun kabusuna çevrilir

### İsrail və Səudiyyə Ərəbistanı arasında gizli əlaqələr üzə çıxıb, rəqibləri Qaşıqçı işi və Məhəmməd bin Salman üzərindən İsrail və ABŞ rəhbərliyini hədəf alıb...

**İsrailin kəşfiyyat xidməti "Mossad"ın rəhbəri 2014-cü ildə gizli şəkildə Səudiyyə Ərəbistanının paytaxtı ər-Riyad şəhərinə səfər edib. Bu barədə İsrailin "Kanal-13" televiziyası Qərb ölkələrinin diplomatlarına istinadla məlumat yayıb. "Sputnik" Agentliyinin məlumatına görə, xəbərdə qeyd olunur ki, 2011-16-cı illərdə "Mossad"a rəhbərlik etmiş Tamir Pardo ər-Riyada 2014-cü ilin əvvəlində gizli səfər edərək bu ölkənin rəsmiləri ilə görüşüb.**



Camal Qaşıqçı

Xəbərdə səfərin İranla Qərb arasında nüvə danışıqlarının başlamasından qısa müddət sonra baş tutduğu və Səudiyyə Ərəbistanı rəhbərliyinin Vaşinqtonun İranla yaxınlaşmasından narahat olduğu üçün baş tutduğu bildirilir. Eyni zamanda səudiyyəlilərin İrana qarşı İsraili güclü dəstəkçiləri olaraq gördüyü qeyd edilir.

Xəbərdə iddia olunur ki, 2014-cü ilin payızında İsrailin baş naziri 3-cü ölkədə Səudiyyə Ərəbistanı Milli Təhlükəsizlik Şurasının sədri və bu ölkənin "qara qutusu" adlandırılan Bəndər bin Sultanla görüşüb.

İsraildə seçkilərin yaxınlaşdığı bir vaxtda bu cür gizli məlumatların mediaya yol tapması bir mənada başa düşüləndir. Apreldə bu ölkədə parlament seçkiləri olacaq və bir sıra müşahidəçilər hazırkı baş nazirin şanslarının yüksək olmadığını düşünür. Mümkündür ki, bu xəbər də Netanyahunun seçki kampaniyasına hesablanıb.

Lakin diqqət çəkən əsas nüans xəbərdə adı çəkilən Səudiyyə Ərəbistanıdır. Ər-Riyadın İsraillə əlaqələri haqqında son illərdə iddiaların sayı artmaqdadır. Ümumilikdə isə krallıq son bir neçə ildə bölgədə daha yumşaq xətt götürüb, İsraillə yaxınlaşır. İlk dəfə olaraq ötən il krallıq öz ərazisindən İsrailə uçan təyyarələrə uçuş üçün hava zolağı verib. Bundan başqa Səudiyyə Ərəbistanı rəhbərliyi Fələstin münaqişəsinin həlli ilə bağlı daha yumşaq fikirlər səsləndirməyə başlayıb. Hətta ötən ilin aprelində Amerikada dərc olunan "The Atlantic" jurnalına verdiyi müsahibədə vəliəhd-şahzadə Məhəmməd bin Salman İsrailin öz torpaqlarına sahib olmaq, dövlət qurmaq haqqının olduğunu bildirib.

Təbii ki, bu vəziyyətin yaranması, yəni İsraillə Səudiyyə Ərəbistanını yaxınlaşdıran əsas amil İrandır. İslam Respublikasının Yaxın Şərq regionunda İsrail və Səudiyyə Ərəbistanı ilə faktiki olaraq savaşır. Yəmən, İraq, Suriya, Livan, Fələstin kimi ölkələrdə faktiki olaraq İran və İsrail, eləcə də Səudiyyə Ərəbistanı mandat müharibəsi aparır. Və təbii ki, ortaq düşmən indi Səudiyyə Ərəbistanı və İsraili yaxınlaşdırır.

Yeri gəlmişkən, ABŞ hakimiyyəti və xüsusən də prezident Trampın kürəkəni, yəhudi əsilli Kuşnerlə yaxınlaşan vəliəhd Məhəmməd bin Salman həm də İrana qarşı cəbhəyə liderlik edir. Çünki İrana qarşı güclü olmaq üçün Səudiyyə Ərəbistanının daha güclü müttəfiqə ehtiyacı vardı. Bu müttəfiq isə İsrail ola bilər. Çünki Tehran indi hər iki dövlətin maraqlarına toxunur.

Ancaq hər nə qədər strateji olaraq İran qarşı İsraillə ittifaq Krallığın maraqlarına cavab versə də, ərəb dünyasındakı ənənəvi İsrail düşmənliyi bu münasibətləri açıb-ağartmağa imkan vermir. Bu səbəbdən də görünən odur ki, təmaslar və danışıqlar bir qayda olaraq gizli şəkildə aparılır. Ancaq indi birdən birə "köhnə xəbərləri" servis edilməsi ər-Riyadın maraqlarına cavab vermir. Çünki məhz bu ərəfədə Krallıq, xüsusən də onun gələcək rəhbəri Məhəmməd bin Salman ətrafında ciddi anti-təbliğat aparılır. Söhbət təbii ki, ərəbistanlı jurnalist Camal Qaşıqçının ölümü və ondan sonra baş verənlərdən gedir.

Bir qədər əvvəl BMT yaydığı hesabatda Qaşıqçının ölüm işi ilə bağlı şübhəlilər arasında vəliəhdin adını elan edib. Qərb mətbuatı isə Qaşıqçının qətlində əsas şübhəlilərdən biri olan Kahtaninin hələ də işində çalışdığı bildirilir.

Bu xəbərin Krallıq üçün daha bir mənfi tərəfi isə İsraillə əməkdaşlığın indiki zamanda qabardılması, başqa sözlə isbat olunmasına xidmət etməsidir. Məsələ ondadır ki, bir qədər əvvəl özünü öldürülən jurnalist Qaşıqçının yaxın dostu kimi təqdim edən Ömər Əbdüləziz CNN telekanalına deyib ki, ötən ilin artıq avqust ayında yazışmalarının izlənildiyindən şübhələnib. İki ay sonra isə Qaşıqçı yoxa çıxıb və öldürülüb. Ömər Əbdüləziz deyib ki, Toronto Universitetinin "Citizen Lab" adlı laboratoriyası onun telefonunun şifrəsinin sındırıldığını aşkarlayıb. Yalnız bundan sonra o, danışmağa qərar verib. O, həmçinin qeyd edib ki, telefonların parolunu sındıran proqram İsrailin NSO adlı firması tərəfindən istehsal olunub və Səudiyyə Ərəbistanına verilib. Artıq Ö.Əbdüləziz həmin firmaya qarşı məhkəmə iddiası qaldırıb.

Bu ilin yanvarında isə ABŞ Milli Təhlükəsizlik Agentliyinin keçmiş işçisi Eduar Snouden "Yedioth Ahronoth" qəzetinə verdiyi müsahibədə deyib ki, Səudiyyə Ərəbistanı İsrailin NSO Qrup şirkətindən aldığı "Pegasus" adlı casus proqramı ilə insanları izləyə bilib. O, ər-Riyadın Qaşıqçı cinayətində də bu texnologiyadan istyifadə etdiyini iddia edib. Snouden deyib ki, əgər NSO, "Pegasus" texnologiyasını Səudiyyə Ərəbistanına satmasaydı Camal Qaşıqçı hələ də sağ ola bilərdi. Snouden deyib ki, NSO firması bu proqramın insanları xilas etdiyini desə də, əslində cinayətlərə də əsas verir.

Bütün bu məlumatların ard-arda yayılması Səudiyyə Ərəbistanı krallığının qorumağa çalışdığı vəliəhdin reputasiyasına ciddi zərbədir. Bu həm də vəliəhd-şahzadəni qoruyan Trampa ciddi zərbədir. Bu mənada indi Trampın Amerikadakı müxalifləri ona Məhəmməd bin Salman üzərindən zərbə vururlar. Yeri gəlmişkən, ötən həftə Tramp Qaşıqçı işi ilə bağlı dinləmələrdə ifadə verməkdən imtina edib.

**Krallıq isə israrla vəliəhdi qorumağa, reputasiyasını bərpa etməyə çalışır. Bir neçə gün əvvəl vəliəhd müqəddəs Məkkə şəhərinə gəlib və müsəlmanların qibləsi Kəbə evini - Beytül Hərəmi ziyarət edib və namaz qılıb. Ancaq belə görünür ki, məsələ təkcə vəliəhdlə bağlı deyil, indi qlobal siyasi rəqabətin ortasına düşən Məhəmməd bin Salman İsrail seçkiləri, Trampın siyasi rəqibləri üçün əsas hədəf olmaqda davam edəcək.**

❑ **Kənan RÖVŞƏNOĞLU,
"Yeni Müsavat"**

**Elan**

**Nəcəfov Nəcəf Sovet oğlunun adına olan Ağstafa səhəri S.Məmmədov küçəsində yerləşən fərdi yaşayış evi DTİ və MHQi-si tərəfindən verilmiş 1003 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsiz sayılır.**

# Eşitməsində problem olan vətəndaş dövlətdən kömək istəyir

## Nazirlik Rəhimə Novruzəliyevanın iddialarına cavab verdi: “O, aldığı qulaq aparatından və məşğulluq mərkəzində təklif olunan işlərdən imtina edib”

**Azərbaycan vətəndaşı Rəhimə Novruzəliyeva eşitmə problemi ilə bağlı müxtəlif dövlət qurumlarına müraciət edib. O, iddia edir ki, problemi həll edilməyib və bu səbəbdən redaksiyamıza üz tutub. Novruzəliyeva deyir ki, 2007-ci ilin fevralından “İkitərəfli Koxlear nefrit IV dərəcəli ağır eşitmə” diaqnozu ilə əlil kimi rəsmən qeydiyyatdadır:**

“Lakin bu günə qədər məni reabilitasiya avadanlığı - "eşitmə cihazı" ilə təmin etmirlər. 2017-ci ildə 3 dəfə Respublika Protez - Ortopedik Mərkəzinə (RPOM) getmişəm. Lakin RPOM-da mənim eşitmə qabiliyyətimə uyğun cihaz yoxdur. RPOM-un vəzifə borcudur ki, məni “eşitmə cihazı”ilə təmin etsin.

Əlil müavinətim dəfələrlə artırılandan sonra cəmi 61 manatdır. Bu məbləğlə normal dolanmaq mümkün deyil".

**R.Novruzəliyeva 2016-da Şəki Məşğulluq Mərkəzinə müraciət edərək “özünüməşğulluq” layihəsində iştirak etmək üçün qeydiyyata düşdüyünü də bildirib:** “Məşğulluq Mərkəzinin direktoru Salamov ”gec müraciət etmisən, bu il sən bu layihədə iştirak edə bilməzsən" dedi. Bununla yanaşı mənə bacarmadığım iki iş təklif etdilər. İşlərdən biri “kompüter operatoru”, digəri “Küdürlü kənd Bələdiyyəsində iş” idi. Mən mərkəzin baş məsləhətçisi Nazlı xanıma izah etdim ki, kompyuter təhsilim - bilgim yoxdur. Necə operator işləyə bilərəm? Küdürlü bələdiyyəsində hansı işlə məşgul olacağımı isə izah etmədilər. Sonradan bu qənaətə gəldim ki, bu, sadəcə kağız üzərində “iş təklif etdik, imtina etdi” bəhanəsi üçün zəmindir. 24.04.2017-ci il tarixində Dövlət Məşğulluq Xidməti tərəfindən mənə rəsmi məktub göndərildi. Məktubda növbəti “Əhalinin özünüməşğulluğunun təmin olunması” layihəsinə dəvət ediləcəyimi yazmışdılar. Daha sonra dəfələrlə Məşğulluq Mərkəzində oldum. Ancaq kar olmağımı bəhanə gətirib məni layihədən yararlanmağıma imkan vermədilər. Məcbur olub həmin ilin oktyabrında o vaxtkı nazir Səlim Müslümova müraciət ünvanladım. Bundan sonra RPOM-a dəvət etdilər. Lakin bu dəfə də “eşitmə cihazları”nın heç biri mənə səsləri eşitdirmədi. Sonuncu dəfə 08.02.2018-ci il tarixində nazir Müslümova və Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri deputat Hadı Rəcəbliyə rəsmi müraciət etdim. Bu problemlə əlaqədar 2018-ci ilin aprelində Helsinki Vətəndaş Assambleyasının Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva indiki nazir Sahil Babayevə müraciət ünvanladı. Lakin Şəki Məşğulluq Mərkəzinin direktoru Salamov yenə də mənim problemimi həll etmədi. Sonuncu dəfə 5 fevral 2019-cu ildə Şəki Məşğulluq Mərkəzində oldum. Orada mənə “özünüməşğulluq” layihəsi deyil, tam başqa - işsizin DOST-u proqramı çərçivəsində “ödənişli ictimai iş” adı altında küçə süpürmək işi təklif etdilər. İmtina etdim. “Özünüməşğulluq” layihəsi anormal duruma salınıb".




**Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mövqeyini də təqdim edirik:** “Şəki şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 168/21 ünvanında yaşayan Novruzəliyeva Rəhimə Adışirin qızının eşitmə aparatı ilə təmin edilməməsi ilə bağlı şikayəti əsassızdır. Belə ki, eşitmə qüsurlu şəxs olan R.Novruzəliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzində qəbul edilib və Mərkəzin mütəxəssisi tərəfindən Mərkəzdə müasir eşitmə aparatlarının hər birinin pasiyentin eşitmə qabiliyyətinə uyğunluğu araşdırılıb. Son nəticə olaraq ona ən optimal uyğun olan Danimarka istehsalı olan eşitmə aparatı (Re-Sound ENZO2 EN598-DW modeli) seçilib. Aparat xüsusi proqram təminatı vasitəsi ilə pasiyentin eşitmə qabiliyyətinə görə tənzimlənib, xüsusi qulaq qəlibi sifariş olunaraq 22 noyabr 2017-ci il tarixdə R.Novruzəliyevaya təqdim edilib. Təqdim edilərkən də o özü bu aparatın onda diskomfort yaratmadığını və məmnunuğunu ifadə edib.

Lakin on gün sonra R.Novruzəliyeva eşitmə aparatının ona uygun olmadığını telefon vasitəsi ilə Mərkəzin tibb şöbəsinə bildirib və poçt vasitəsi ilə həmin aparatı Mərkəzə geri göndərib. Mərkəz tərəfindən ötən ilin noyabr ayında R.Novruzəliyevaya mərkəzə müxtəlif markalı eşitmə aparatları daxil olduğu bildirilib və yenidən eşitmə aparatı ilə təmin edilməsi üçün mərkəzə dəvət edilib. Lakin bu vaxta qədər o, Mərkəzə gəlməyib.

Onu da bildirək ki, R.Novruzəliyevanın məşğulluq məsələsinin həlli məqsədilə Şəki şəhər Məşğulluq Mərkəzi tərəfindən ona bir sıra vakant yerlər təklif olunsa da, o, özünüməşğulluq proqramına cəlb edilmək, proqram çərçivəsində kitab evi açaraq kitab satışı ilə məşğul olmaq istədiyini bildirib. Lakin R.Novruzəliyevanın kitab evi açmaq üçün müvafiq obyekti, şəraiti yoxdur və o, kitab evi açmaq üçün hansısa obyektin də ona alınıb verilməsini istəyir. Bu da proqramın tələblərinə uyğun deyil. Çünki özünüməşğulluq proqramı çərçivəsində vətəndaşlara kiçik bizneslərini qurmaq üçün yalnız zəruri mal və materiallar alınıb verilir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# İmperatorun qadağan etdiyi Sevgililər günü…

## Tanınmış yazıçılardan Valentin günü ilə bağlı fərqli mövqelər

**Qədim Romada 14 fevral bütün romalılar üçün əhəmiyyətli gün idi. Roma xalqı tərəfindən qadınlıq və evlilik ilahəsi olaraq qəbul edilən ilahəyə hörmət əlaməti olaraq tətil və şənlik edilərdi.**

15 fevral günündə isə Luperkalia bayramı başlayırdı. Bu bayram xalqın gənc əhalisi üçün böyük əhəmiyyət daşıyırdı. Səbəbi isə həyatları qəti qaydalar ilə məhdudlaşdırılmış, bunun təbii nəticəsi olaraq birlikdə həyata şansı olmayan gənclər yalnız bu bayram müddətində bir-birinin partnyoru olurdular.

Hansı gənc qadının hansı gənc kişi ilə bir cüt meydana gətirəcəyi Luperkalia bayramının ərəfə günü edilən püşklə müəyyən olurdu. Romalı gənc qızlar adlarını kiçik kağız parçalarının üzərinə yazıb bir qaba qoyurdular.

Gənc romalı kişilər isə qabdan bu kağızları çəkərək üzərində hansı qızın adı yazılıbsa o qızla bayram əyləncələri boyunca birlikdə cinsi həyat yaşayırdılar.

İmperator II Kladius əxlaqi dəyərlərə əhəmiyyət verən biri kimi xarakterizə olunur. O zamanlar Valentin Romada rahib idi.




Valentin imperatorun Luperkalia bayramını qadağan etməsinə baxmayaraq, gizli şəkildə qızlarla oğlanları görüşdürməkdə, onların bu müvəqqəti görüşünü də xristianlıq qaydaları ilə guya qanuniləşdirməkdə davam edir.

Katoliklər də bu fakta dayanaraq iddia edirdilər ki, rahib Valentin xristianlığı təbliğ etdiyi üçün öldürülüb. İmperator da onun bu hərəkətlərindən xəbər tutaraq zindana atdırır və döydürərək, təhqiramiz formada öldürtdürür.

Valentin 14 fevral tarixində xristian məzarlığında dəfn edilir. Rahib Valentin barədə tarixdə keçən maraqlı faktlardan biri də onun həbsxanadan öz yoldaşlarına, xüsusən də keşiş dostu Mariusa “Valentini unutma”, “Səni sevirəm” deyə məktublar göndərməsidir.

Bu fakt ümumiyyətlə, Valentinin eyni zamanda bir homoseksual olduğu fərziyyəsini önə çəkir. 14 fevralın “Valentin günü”adı altında açıq-aşkar qeyd edilməsi rahib Valentinin ölümündən təxminən 226 il sonraya təsadüf edir.

Papa Gelasius tərəfindən 496-cı ildə Roma bütpərəstlərindən qalan Luperkalia bayramının adı rahib Valentinin şərəfinə dəyişdirilir.

Addəyişmənin səbəbinə gəlincə isə, xristian ruhanilər Romadakı bütpərəstlərin Luperkalia bayramına xristian gənclərin də qatıldığından və bütpərəst qızlarla əylənmələrindən narahat olduqlarından gənclərin heç olmasa xristianlığa bağlı adı olan bir şənlikdə - “Müqəddəs Valentin günü”ndə əylənmələrini təmin edirlər.

Bununla da həmin bu “Valentin günü” meydana çıxır. İllər keçdikcə yavaş-yavaş 14 fevral sevgililərin, aşiqlərin bir-birinə eşq mesajları göndərdiyi bir günə çevrildi.

**Yazıçı Pərviz Cəbrayıl** “Yeni Müsavat”a bildirdi ki, insanları sevgiyə, gözəlliyə, inkişafa səsləyən nə varsa, kənardan gəlmə olsa belə, məqbuldur: “Ancaq biz o şeyləri alaq ki, o bizdə yoxdur. Məsələn, elmi kəşf, texniki vasitələr və s. Avropa dediklərimizi bizə ixrac edir, ancaq yanına belə-belə şeyləri də soxuşdurub yollayır. Mədəni işğal oluruq. Ancaq məcbur etmir ki, məsələn, bir kompüterin yanında soxuşdurduğumuz bu ”bayram"ı da mütləq götürməlisiniz. O bayramın burda tam özünə yer etməsinin ilgəyi qadınlarımızdan keçir. Bax, bu gün yaxınlaşan kimi ancaq qadınlar kişilərdən nələrsə tələb etməyə başlayır".

**P.Cəbrayılın sözlərinə görə, bu “sırınmışlardan” biri də 8 mart qadın bayramıdır:** “Bu gün mənim üçün heç bir məna kəsb etmir. Sevginin günü və doğum günü olmaz. Nə yarandığı gün var, nə bitdiyi. Kəsəsi, qadınlar hədiyyə istəyir”.

**Yazıçı Mirmehdi Ağaoğlu** isə düşünür ki, “Valentin günü” kapitalizimin uydurduğu bayramlardan biridir: “Biz istəsək-istəməsək də, istehlakçı cəmiyyətlərdə bu gün keçiriləcək. Necə ki, "qara cümə" təşkil olunur və kapitalizmə sərf edir ki, öz malını satsın. Bu da sevgi ilə bağlı bayramdır, qarşısını almaq olmaz".

**M.Ağaoğlu 14 fevralın qeyd olunmasında milli-mənəvi dəyərlərə zidd hal görmür:** “Bəzilər fikirləşir ki, milli sevgililər gün olsun. Bu təklifi də qəbul edirəm. Amma qloballığın gətirdiyi bir sevgi bayramdır və istəsək də onu ləğv edə bilmərik. Əgər alternativ bayram istəyiriksə, hansısa simvolik bir gen seçilə bilər. Bir müddət əvvəl İlham və Fərizənin toy gününü "Sevgililər günü" kimi qeyd etmək təklif edilmişdi. Mən buna qarşı çıxanlardan idim. Çünki o bayramın kökündə intihar aktı dayanır və bu sonluqla bitən hekayə mənim üçün məhəbbət nümunəsi ola bilməz".

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
Son səhifə
N 35 (7205) 14 fevral 2019



## Şahzadə olmaq üçün bu şərtlər vacibdir

**The Walt Disney Company bir qızın şahzadə adlandırılması üçün 10 əsas şərti açıqlayıb. Bu barədə ötən gün "The Guardian" qəzeti yazıb. Kompaniya rəssamların hazırladığı bir posteri də xəbərin yanında yayıb. Disneyin versiyasına görə, şahzadə ətrafındakıların qayğısına qalmalı, sağlam həyat tərzini həyata keçirməli, insanları xarici görünüşünə görə ittiham etməməli, dürüst olmalı və başqalarının güvənə biləcəyi insan olmağı bacarmalıdır. Bundan başqa, zərif cinsin nümayəndələri şahzadəyə xas olan özünə güvən hissinin olmasını, səhvləri düzəltmək bacarığının formalaşmasını da bu şərtlər sırasında sadalayırlar. Sadiqlik və heç zaman təslim olmamaq da şahzadəliyin "olmazsa olmaz"ı sayılır.**

## Marketdə alış-veriş edirdi, həyatı xilas oldu

**Danielle McCullochun həyatı bal ayı tətili zamanı qarşılaşdığı həkimin müayinəsi sayəsində qurtulub. "Daily Mail"in xəbərinə görə, Kıbrısda bal ayı tətili keçirən 26 yaşlı qadının marketdə qarşılaşdığı həkim onun boynunda bir yumru olduğunu və ən yaxın zamanda həkimə göstərməsini söyləyib. İngiltərəyə qayıdan kimi həkimə gedən 2 uşaq anası Daniellenin üçüncü mərhələdəki tiroit xərçəngi olduğu ortaya çıxıb. Həkimə minnətdarlığını bildirən Danielle onun barəsində aşağıdakıları deyib: "Həyatımı xilas etdi. Üstəlik, heç iş başında da deyildi, marketdə alış-veriş edirdi. Boynumdakı yumru daha öncə heç kimin diqqətini çəkməmişdi. Həkimə getməsəydim, bəlkə də indiyə həyatda olmazdım" deyib. Xərçəngə qalib gələn gənc qadın sistemli olaraq check-upları etdirəcəyini deyib.**

# İtini tapana 650 min dollarlıq ev bağışlayacaq

**İtini itirən Çin sakini onu geri qaytaracaq adama mükafat olaraq evini təklif edib. "The Daily Mirror"un yazdığına görə, Lyu soyadlı, 70 yaşlı qadın Pekində yaşayır və artıq mükafatı barədə mətbuatda elan verib. Qadının evi 650 min dollar qiymətindədir. Elanın yayılmasından qısa müddət sonra 70 yaşlı it yiyəsinə çoxlu sayda telefon zəngləri daxil olub. Zəng edənlərin əksəriyyəti ya iti tapdığını, ya da harda olduğunu deyib. Onlardan əksəriyyəti yalan danışıb, bir çoxları isə başqa iti qadına öz iti kimi təqdim etməyə çalışıb. Qadının bacısı oğlu isə bəyan edib ki, dələduzların əlindən cana doyublar və buna görə də bu formada axtarışa son qoymaq niyyətindədirlər.**



# Həkimə qulaq asmadı, əkiz uşaqları dünyaya gəldi



**Böyük Britaniya sakininə xəstəliyinə görə hamiləliyini yarıda kəsmək məsləhət görülsə də, o, həkimlərə qulaq asmadan sağlam əkizlərini dünyaya gətirib. Bu barədə "The Mirror" nəşri xəbər verib. Hanna Morris və Mark Kinq Vaşinqtonda yaşayırlar və 2016-cı ilin yanvar ayında dünyaya körpələrinin gəlməsini gözləyirdilər. Amma hamiləliyinin üçüncü ayında qadında bağırsaq infeksiyası tapıldığı üçün müalicəyə başlayıb. Analığa namizəd bildirdi ki, həkimi onu tam müalicə etməyib. Bir ay keçəndən sonra 27 yaşlı britaniyalının vəziyyəti pisləşib və erkən doğuş əlamətləri müşahidə olunub.**

Həkimlər bildiriblər ki, Morrisin körpəsini dünyaya sağlam gətirmə şansı yoxdur. "Həkimlər öz təəssüflərini bildirdilər və xəbərdarlıq etdilər ki, mənə heç nədə kömək edə bilməyəcəklər" deyən ananın sözlərinə görə, həmin vaxt ən doğru addım hamiləliyi sonlandırmaq olsa da, o, bunu etməyib: "Niyə olduğunu bilmirəm, amma hansısa səbəbə görə mən bunu etmək istəmirdim. Daxili intuisiya mənə dedi ki, həkimin dediyinə əməl etmək lazım deyil. O zaman dedim ki, əgər mən onları təbii yolla itirəcəyəmsə, qoy buna təbiət özü qərar versin".

**Birtaniyalının dediyinə görə, doğuş normal keçib və uşaqlar da sağ-salamat dünyaya gəlib.** Qeysəriyyə əməliyyatı ilə Corc və Alfi adlı iki uşaq doğulub. Uşaqlardan birinin zəifləmiş immuniteti olsa da, ikincidə ürək çatışmazlığı yaşanıb. Amma aradan iki il keçəndən sonra əkizlərin heç bir problemi yoxdur.



## Qoroskop (14 fevral)

Səbuhi Rəhimli

**QOÇ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**ƏKİZLƏR** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Ən azından bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran yarım ay ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**OĞLAQ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**BALIQLAR** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 70 yaşı var, ibtidai məktəbi indi bitirib

**Türkiyənin Ordu şəhərində yaşayan 70 yaşındakı Ümmühan Mazlumoğlu adlı qadın maşın sürmək xəyalını gerçəkləşdirmək üçün ibtidai sinfi oxuyaraq diplom alıb. Bundan sonra isə sürücülük kursuna qatılıb. İki dəfə yazılı imtahan verib, uğur qazana bilməyən qadın əzmlə davam edir və tezliklə sürücülük vəsiqəsi alacağına inanır. Hazırda isə Ü.Mazlumoğlu maşın sürmə texnikasını öyrənir. Türkiyənin "Hürriyyet" qəzetinə açıqlamasında 70 yaşlı qadın bildirib ki, uşaqlığından bəri ən böyük arzusu maşın sürmək olub.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755